## MÜNDƏRİCAT

BÖYÜK SƏLCUQ İMPERATORLUĞU......3
MONQOL İŞĞALLARI......7
QIZIL ORDU DÖVLƏTİ......10
OSMANLI İMPERATORLUĞU......14
TEYMUR İMPERATORLUĞU......23
QAZAN XANLIĞI......26
HƏŞTƏRXAN XANLIĞI......28
KRIM XANLIĞI......29
SİBİR XANLIĞI......32
ORTA ƏSR ŞƏHƏRLƏRİ......33
SƏLİB (XAÇ) YÜRÜŞLƏRİ......37

FRANSA ........................................................................................43
İNGİLTƏRƏ....................................................................................51
ÇEXİYA..........................................................................................58
İSPANİYA.......................................................................................61
İTALİYA.........................................................................................64
TEXNİKİ İXTİRALAR ....................................................................66
AMERİKA XALQLARI....................................................................67
COĞRAFİ KƏŞFLƏR.......................................................................69
REFORMASİYA..............................................................................74
NİDERLAND..................................................................................80
RUSİYA VƏ BALTİKYANI XALQLAR...........................................84
REÇ-PESPOLİTA.............................................................................92
HİNDİSTAN ...................................................................................93
ÇİN.................................................................................................100
MƏDƏNİYYƏT...............................................................................102

# BÖYÜK SƏLCUQ İMPERATORLUĞU
# 1038-1157

❖Yaxın və Orta Şərqin qüdrətli türk dövləti olan Böyük Səlcuq imperatorluğunun (1038-1157) yaranması səlcuqların adı ilə bağlıdır. Səlcuqlar oğuzların Üç ox qolunun Qınıq boyundan idilər. **Səlcuq bəy** Oğuz dövlətində hərbi dəstə başçısı - subaşı vəzifəsi daşıyırdı.

❖ Səlcuqun nəvəsi Toğrul bəy Qəznəvilərlə mübarizə şəraitində 1038-ci ildə Xorasanın əsas şəhəri Nişapura daxil olub, dövlətin yarandığını elan etdi.

❖ Səlcuqlar 1040-cı ildə Dəndənəkan döyüşündə Qəznəviləri məğlub etdilər. Bu döyüşdə onların qələbə çalmasının əsas səbəbləri:

✓ Qəznəvi dövlətindəki daxili ziddiyyətlər,

✓ xalqın narazılığı və türk qulamlarının səlcuqlara rəğbət bəsləməsi idi.

❖ Dəndənəkan döyüşünün ertəsi günü Toğrul bəy oğuzların qurultayında sultan elan edildi.

❖ 1043-cü ildə paytaxt Nişapurdan Reyə köçürüldü.

❖ Səlcuq yürüşləri nəticəsində 1040-1054-cü illərdə bir sıra ərazilər ələ keçirildi və Buveyhilər dövlətinin varlığına son qoyuldu.

❖ 1055-ci ildə Sultan I Toğrul Bağdadı tutdu. Abbasi xəlifəsi ona «Rükniddin», yəni «dinin təməli» titulunu verdi.

- I Toğruldan sonra hakimiyyətə gələn **Alp Arslanın** (1063-1072) məqsədi Anadolunu fəth etmək idi.
- 1068-ci ildə imperator elan edilən Diogen Makedoniya, Trakiya və Yunanıstandan əlavə qüvvələr topladı. O, Rumelidə yaşayan oğuz və peçeneqləri də orduya cəlb etdi, eyni zamanda Avropa ölkələrindən kömək aldı, Orta və Qərbi Anadoluda əli silah tutan xristianların hamısını səfərbərliyə aldı.
- Alp Arslanın baş komandanı Əmir Sunduk Diogeni məğlub edərək Bizansın zəfər nişanı olan «Böyük qızıl xaç»ı ələ keçirdi.
- Bundan sonra Alp Arslanın başçılığı altında Səlcuq ordusu ilə Bizans ordusu arasında 26 avqust 1071-ci ildə məşhur Malazgird döyüşü baş verdi.
- Bizans ordusu məğlubiyyətə uğradı və Diogen əsir düşdü.
- 50 il müddətinə sülh müqaviləsi bağlandı.

✓ Müqaviləyə görə Bizans hər il xərac verməli,

✓ lazım gəldikdə səlcuqlara hərbi yardım göstərməli idi.

- Ərəb xəlifəsi **Alp Arslanı** "Müsəlmanların xilaskarı", "İslamın nuru" adlandırdı.
- Malazgird qələbəsi **dünya tarixində dönüş** oldu.
- Anadolu həmişəlik türk torpağına çevrildi.

- Alp Arslanı əvəz edən **Məlikşah** (1072-1092) Konya, Ankara, Urfa, Qüds şəhərlərini və Suriyanı ələ keçirdi.
- Onun vəziri Nizamülmülk böyük alim və dövlət xadimi idi.

Məlikşahın dövründə:

- ✓ Paytaxt Reydən İsfahana köçürüldü.
- ✓ Səlcuq imperatorluğu özünün çiçəklənmə mərhələsini yaşadı.

- 1087-ci ildə beynəlxalq ticarətin canlanması üçün tacirlərin bəzi rüsumlardan azad edilməsi haqqında fərman verildi.
- Səlcuqlar dövründə iqta torpaqları geniş yayılmış və uc torpaqları adlı yeni mülkiyyət forması yaranmışdı.
- Uc torpaqları mahiyyət etibarilə Böyük Karl tərəfindən Frank imperiyası sərhədləri boyunca yaradılmış və markqraflıqlar adlandırılan, möhkəmləndirilmiş sərhəd məntəqələri ilə oxşarlıq təşkil edirdi.
- Bu dövrdə kəndlilərin ödədiyi əsas vergi "uşr" idi.
- Sultan Səncərdən (1118-1157) sonra Böyük Səlcuq imperatorluğu dağıldı.

# BÖYÜK MONQOL İMPERATORLUĞU

❖ XII əsrdə monqollarda qəbilə quruluşu dağılmaqda idi. Qəbilələr dağıldıqca müxtəlif qəbilələrin ayrı-ayrı hissələrindən ibarət birləşmələr - **ordular** yaranırdı. Ordulara hərbi rəislər - bahadır və noyonlar başçılıq edirdi.

❖ Monqol imperatorluğunun əsasını **Temuçin** adlı bahadır qoymuşdur.

❖ 1206-cı ildə Onon çayı sahilində keçirilən qurultay Temuçini xaqan elan etdi və onu **Çingiz xan** adlandırdı.

❖ Monqol dövlətinin paytaxtı Qaraqorum şəhəri oldu.

❖ Çingiz xan geniş işğallara başlamaq üçün güclü ordu yaratmağa başladı.

❖ Bu məqsədlə verdikləri əsgərlərin sayından asılı olaraq ölkə ərazisi tümənlərə, yüzlüklərə və minliklərə bölünür və müvafiq olaraq tümən rəisi, yüzbaşı, minbaşı tərəfindən idarə edilirdi.

❖ Ordu da onluq, yüzlük və minliklərə bölünürdü.

❖ Monqolların qanunlar məcəlləsi xaqanın şifahi şəkildə verdiyi əmrlərin yazıya köçürülməsi nəticəsində yaranmış "**Böyük yasa**" idi.

❖ Monqol dövləti hərbi demokratiyanın bəzi xüsusiyyətlərini saxlamış feodal dövləti idi.

# Monqol işğalları

❖ Çingiz xan monqolları və qonşu türk tayfalarını birləşdirdikdən sonra geniş işğallara başladı.

❖ 1207-1211-ci illərdə əvvəlcə Sibir, sonra Türküstan və 1215-ci ildə Şimali Çin tutuldu.

❖ Hərbi yürüşlərdə monqolların uğurlarının əsas səbəbləri:

✓ Ordunun özəyini təşkil edən çevik süvari dəstələrdən, divardələn, daşatan, odyağdıran qurğulardan geniş istifadə olunması.

✓ Orduda kəşfiyyat işinin yaxşı qurulması.

✓ Çingiz xan gələcəkdə işğal edəcəyi ölkələrə ticarət karvanları, səyyahlar, səfirlər göndərir və məlumatlar toplayırdı. İşğala məruz qalmış ölkələrin çoxunda feodal dağınıqlığının hökm sürməsi.

❖ 1218-ci ildə monqol tacirlərinin Otrar şəhərində soyulması («Otrar fəlakəti») Xarəzmə hücum üçün bəhanə oldu.

❖ 1219-1220-ci illərdə Buxara, Səmərqənd, Otrar, Urgənc və Mərv şəhərləri tutuldu.

❖ Monqollar ölkənin paytaxtı Ürgənc şəhərini yalnız Ceyhunun (Amudərya) bəndlərini açaraq çayın suyunu şəhərə buraxdıqdan sonra tuta bildilər.

❖ 1227-ci ildə Çingiz xanın vəfatından sonra oğlu **Ugedey** Böyük xaqan seçildi. Çingiz xan hələ sağlığında imperiyanı dörd oğlu arasında dörd inzibati vahidə - ulusa bölmüşdü:

1. Qərbl Monqolustan, Şimali Çin (Ugedey);
2. Mavəraənnəhr və Yeddisu (Cağatay);
3. Qərb Ulusu - Cuci;
4. Şərqi Monqoiustan (Tuli).

❖ 1235-ci ildə Çingiz xanın nəvəsi **Batı xanın** başçılığı ilə Avropanın cənub-şərqinə yürüş başladı. Qıpçaq və mordvin torpaqları, Xəzər və Azov dənizlərindən başlayaraq cənub-şərqi rus çöllərinə qədər olan bütün ərazilər işğal edildi.

❖ Monqollar 1237-ci ildə Ryazan,

❖ 1238-ci ildə Vladimir şəhərlərini tutdular. Keçilməz bataqlıqlar Novqorodu tutmağa mane oldu.

❖ 1239-cu ildə qıpçaq torpaqları tutuldu.

❖ 1240-cı ildə Kiyev, Qalisiya, Volını tutan Batı xan Macarıstan, Çexiya və Polşa üzərinə hərəkət etdi.

❖ Lakin ordunun yorulması, üsyanların başlanması, arxada ona tabe olmuş rus knyazlarının xəyanəti onu geri qayıtmağa məcbur etdi.

❖ Batının köməyi ilə **Münke** 1251-ci ildə Böyük xaqan oldu.

❖ **Xubilay** xaqanın dövründə (1264-1294) Çinin cənubu tutulsa da, Yaponiya və Hind-Çinin tutulması cəhdi uğursuz oldu.

❖ 1264-cü ildə Xubilay xan paytaxtı Qaraqorumdan Pekinə köçürtdü.

❖ XIII əsrin ortalarından başlayan çəkişmələr nəticəsində XIV əsrin əvvəlində Böyük Monqol imperatorluğu parçalandı və onun yerində ayrı-ayrı müstəqil dövlətlər yarandı.

# QIZIL ORDU DÖVLƏTİ

❖ Batı xanın yürüşləri nəticəsində XIII əsrin 40-cı illərində Şərqi Avropada Cuci ulusunun ərazisində **Qızıl Ordu dövləti** yarandı.

❖ Rus mənbələrində bu dövlət Qızıl Orda adlanır.

❖ Onun tərkibinə Krım, Qafqazın Dərbəndə qədər olan hissəsi, Şimali Xarəzm, Volqa - Kama bulqarlarının, mordvalıların, qıpçaqların, peçeneqlərin əraziləri daxil idi.

❖ Dövlətin əhalisinin və ordusunun əksəriyyətini türk tayfaları təşkil etdiyindən onu türk dövləti də adlandırırdılar.

❖ Qızıl Ordu xanlarının rəsmi fərmanları XIV əsrdən başlayaraq türk dilində yazılırdı.

❖ Rus knyazlıqları Qızıl Orduya daxil olmayıb, vassal asılılığında idilər.

❖ Dövlətin paytaxtı Batı xan tərəfindən indiki Həştərxan yaxınlığında salınan **Saray Batı** şəhəri idi.

❖ XIII əsrin ikinci yarısında Qızıl Ordunun paytaxtı indiki Volqoqrad yaxınlığında yerləşmiş **Saray-Bərkəyə** köçürüldü.

- ✓ Qızıl Orduda ən böyük feodallar hakim xan ailəsinin üzvləri idi.
- ✓ Bunların ardınca noyonlar və ya türkcə deyildiyi kimi, bəylər gəlirdi.
- ✓ Dövlətə vergi verməkdən azad edilənlər **tarxan,**
- ✓ torpağa sahib olmaq hüququ verən fərman **yarlıq** adlanırdı.
- ❖ Qızıl Ordunun iri feodallarından olan **Noqay xan** XIII əsrin sonlarında Krımı, Qara dənizin şimal sahillərini və Dunayın aşağı axarındakı ərazllərl də tabe etdi.
- ❖ Batının qardaşı **Bərkə xan** özü islam dinini qəbul etsə də, yalnız **Özbək xan** (1313-1342) onu rəsmi din elan etdi.
- ✓ Qızıl Ordu dövlətinin başında **xan** adlanan hökmdar dururdu.
- ✓ Onun yanında ali məşvərətçi orqan olan məclis və divan fəaliyyət göstərirdi.
- ✓ Dövlət işlərini bəy və əmirlər,
- ✓ ayrı-ayrı sahələri vəzir və naiblər idarə edirdilər.
- ✓ Xanın xüsusi məmurları olan **baskaklar** yerli hakimlərə nəzarət edir, vergi və mükəlləfiyyət məsələlərini həll edirdilər.

## Qızıl Ordunun parçalanması

❖ Canı bəyin ölümündən (1357) sonra başlanan çəkişmələr nəticəsində 1357-1380-ci illərdə Qızıl Orduda 25-dən çox xan dəyişdi.

❖ XIV əsrin 60-cı illərində Xarəzm və Həştərxanda müstəqillik meyli gücləndi.

❖ Qızıl Ordunun zəifləməsindən istifadə edən Polşa və Litva Qızıl Ordunın Dneprboyu ərazilərini tutdu.

❖ Moskva knyazı Dmitri Donskoy 1380-ci ildə **Kulikovo döyüşündə** Mamay xanı məğlub etdi.

❖ Əmir Teymurun köməyi ilə hakimiyyətə gələn **Toxtamış** (1380-1395) 1382-ci ildə Moskvanı tutub yandırdı.

❖ Lakin Toxtamış Teymurilərin hakim olduğu ərazilərə də hücum etdiyi üçün 1395-ci ildə Terek sahilində Teymur tərəfindən məğlub edildi.

✓ Saray-Bərkə tutuldu.

✓ Qızıl Ordunın şərq vilayətləri Teymuri dövlətinə daxil edildi.

❖ XV əsrin birinci yarısında :
✓ Volqaboyunda Qazan və Həştərxan xanlıqları,
✓ Volqa və İrtış çayları arasında Noqay Ordusı,
✓ Krım,
✓ XV əsrin ikinci yarısında isə Qərbi Sibir xanlığı yarandı.
❖ Qızıl Ordu xanı Əhməd xan Polşa kralı IV Kazimirin təhriki ilə 1472-ci ildə artıq itaətdən çıxmış Moskva knyazlığı üzərinə uğursuz yürüş etdi.
❖ 1480-ci ildə Əhməd xan və Moskva knyazı III İvan Uqra çayı sahilində qarşılaşdı.
❖ "Uqra qarşılaşması" zamanı Polşa kralı Əhməd xana yardım edə bilmədi.
❖ Soyuqlara görə geri dönən Əhməd xanı noqaylar öldürdülər.
❖ Bununla da Rusiya monqol ağalığından azad oldu.
❖ XVI əsrin əvvəlində Qızıl Ordu dövləti tam süqut etdi.

## OSMANLI İMPERATORLUĞU
## 1299-1922

**Osmanlı dövlətlnin yaranması.**

❖ Böyük Səlcuq imperatorluğunun dağılmasından xeyli sonra Kiçik Asiyada yeni bir qüdrətli türk dövləti - Osmanlı imperatorluğu yarandı.

❖ Çingiz xanın Mərkəzi Asiyaya yürüşü ilə əlaqədar 70 minə yaxın oğuz türkü Anadoluya köç etmişdi. Səlcuqların qayı boyundan olan

❖ **Ərtoğrul** 1231-ci ildə öz tayfasını Ankara sərhədinə gətirmiş və Bizansla olan sərhədləri qorumaq müqabilində Səlcuq sultanından Söyüdlü qəşəbəsini və Domançı yaylağını iqta olaraq almışdı.

❖ Qayılar ətrafdakı Bizans hakimlərini də özlərindən asılı vəziyyətə salmışdılar.

❖ Ərtoğrulun ölümündən sonra qayılara başçı olan oğlu **Osman bəy** (1289-1326) Konya sultanlığının varlığına son qoyaraq 1299-cu ildə Osmanlı dövlətini .

❖ 1326-cı ildə Bursanın fəthi bu dövlətin tarixində dönüş nöqtəsi oldu. Osmanlılar Mərmərə dənizinin Anadolu hissəsinə həmişəlik yiyələndilər. 1329-cu ildə Bursa paytaxt oldu.

❖ Osman Qazinin oğlu **Orxan bəy** (1326-1359) dövlət quruculuğu ilə məşğul olmağa başladı.

❖ O, dövlətin hakimiyyət orqanlarını və vəzifələrini müəyyən-ləşdirdi. Ölkə vilayətlərə və dairələrə bölündü.

❖ Konstantinopolu ələ keçirmək üçün ilk növbədə Nikeya şəhərini tutmaq lazım idi.

❖ Orxan Qazi 1329-cu il Maltəpə döyüşündə Bizansı məğlub edib, Nikeya şəhərini tutaraq onu İznik adlandırdı. Bununla da Bizans Anadoluda güclü dayaqlarından birini itirdi.

❖ 1337-ci ildə Nikomediya şəhərini tutan osmanlılar onu İzmit adlandırdılar.

❖ XIV əsrin 30-cu illərində daxili çəkişmələrə son qoymaq məqsədilə Bizans imperatoru kömək üçün osmanlılara müraciət etdi.

❖ Köməyə gedən Süleyman paşa qiyamçı serbləri məğlub etdi.

❖ Əlverişli şəraitdən istifadə edən osmanlılar 1354-cü ildə Gelibolunu tutdular.

## Osmanlı imperatorluğunun yaranması

❖ 1359-cu ildə hakimiyyətə gələn **I Murad (1359-1389)** sultan titulunu qəbul etdi.

❖ o, 1361-ci ildə Ədirnəni tutaraq onu dövlətin paytaxtına çevirdi.

❖ XIV əsrdə Balkan yarımadasında olan dövlətlər daxili ara çəkişmələri və öz aralarında gedən müharibələr nəticəsində zəifləmişdilər.

❖ 1370-ci ildə Bizans, sonra Bolqarıstan osmanlı asılılığını qəbul etdilər. 1371-ci ildə baş vermiş Çirmən döyüşündə məğlubiyyətə uğradılan serblər də osmanlı asılılığına düşərək hər il əsgər və vergi verməyə məcbur oldular.

❖ Lakin osmanlılara qarşı qoşun toplayan serblər 1389-cu il 25 iyun Kosovo döyüşündə ağır məğlubiyyətə uğradılar.

❖ **Sultan I İldırım Bəyazid** (1389-1402) Serbiyanın müstəqilliyinə son qoyaraq Dunay sahillərinə qədər əraziləri ələ keçirdi.

❖ 1393-cü ildə Bolqarıstanın paytaxtı Tırnovo,

❖ XIV əsrin sonlarında Bosniyanın böyük hissəsi və Albaniya osmanlılar tərəfindən tutuldu. Macar kralı Sigizmund fransız, alman, ingilis və çex cəngavərlərinin iştirakı ilə səlib yürüşü təşkil etdi.

❖ 1396-cı il Niqbolu döyüşündə səlibçilərə qalib gələn osmanlılar Bolqarıstanın fəthini başa çatdırdılar.

❖ Konstantinopolun fəthinə hazırlaşan I İldırım Bəyazid Anadoluhisar qalasını tikdirdi.

❖ XV əsrin əvvəllərində I İldırım Bəyazidin Konstantinopolun mühasirəsi ilə məşğul olmasından istifadə edən Əmir Teymur Şərqi Anadoluya yürüş etdi və bir çox əraziləri ələ keçirib Azərbaycana qayıtdı.

❖ Teymurun ikinci yürüşü zamanı 1402-ci il iyulun 28-də Ankara düzənliyində orta əsrlərin ən böyük döyüşlərindən biri baş verdi.

✓ Osmanlılar Ankara döyüşündə məğlub oldular və

✓ Sultan Bəyazid əsir düşdü.

❖ I İldırım Bəyazidin Əmir Teymur tərəfindən məğlub edilməsi Avropanı Osmanlı imperatorluğunun işğalından xilas etdi.

❖ Bu xəbəri eşidən Roma papası Avropa ölkələrinin kilsələrində üç gün kilsə zənglərinin sədaları altında şükranlıq duası oxutdurmuşdu.

❖ Bundan sonra Osmanlı dövlətində 11 illik **"Səltənət fasiləsi"** adlanan çəkişmə dövrü başladı.

❖ **II Murad** (1421-1451) Osmanlı dövlətinin qüdrətini bərpa edib,

✓1444-cü ildə Varna döyüşündə Yanoş Hunyadinin başçılıq etdiyi səlibçi macar və çex ordusunu,

✓ 1448-ci ildə ikinci Kosovo döyüşündə yenə onun səlibçi ordusunu məğlub etdi.

❖ II Muradın oğlu **II Mehmet (1451-1481)** 1453-cü ildə Qızıl Buynuz limanını tutub 53 günlük mühasirədən sonra Konstantinopolu fəth etdi.

✓ Sonuncu Bizans imperatoru XI Konstantin həlak oldu.

✓ Bizans imperiyasının varlığına son qoyuldu.

✓ Osmanlılar Konstantinopolu İstanbul adlandıraraq dövlətin paytaxtına çevirdilər. Bundan sonra II Mehmetə **Fateh** adı verildi.

❖ 1475-ci ildə Krım xanlığı Osmanlı dövlətindən asılı vəziyyətə düşdü.

❖ 1479-cu ildə Albaniya tam tabe edildi və Venesiya ilə sülh müqaviləsi bağlandı. Bu sülhə görə:

✓ Egey dənizindəki adalar Türkiyəyə,

✓ Krit və Korfu adaları Venesiyaya çatdı.

✓ Hər il min dukat bac verməli olan venesiyalılar gömrüksüz ticarət hüququ aldılar.

❖ XV əsrin ikinci yarısında Moldova, Valaxiya, Moreya yunan knyazlığı və Afina hersoqluğu da asılı vəziyyətə salındı.

- ✓ Osmanlı ordusunun əsas hissəsini akınçı adlandırılan atlı feodal qoşunları təşkil edirdi.
- ✓ İlk dəfə Orxan Qazi muzdlu piyada qoşun hissələri təşkil etdi. Çünki qalaların alınması zamanı süvarilər lazımi rol oynaya bilmirdilər.
- ✓ Orduda əsas yeniliklərdən biri də yeniçəri adlı qoşunun yaradılması idi. Yeniçəri tabe edilmiş xristian ölkələrdən yığılıb müsəlmanlaşdırılan gənclərdən təşkil olunan və dövlət xəzinəsi hesabına saxlanan nizami türk piyadası idi.
- ✓ Sultandan sonra dövlətdə əsas vəzifəni baş vəzir tuturdu. O, möhür saxlayır, siyasi işlərə rəhbərlik edirdi.
- ✓ Maliyyə işlərinə dəftərdar baxırdı.
- ✓ Ölkə ərazisi inzibati cəhətdən paşalıqlara və sancaqlara bölünmüşdü.

Torpaq mülkiyyətinin dövlət, xassə (sultan), vəqf, mülk növləri ilə yanaşı, muzdlu qoşun hissələrinə məvacib əvəzində verilən timar da var idi.

- ✓ 1375-ci ildə Sultan I Murad ziyamət adlanan daha bir şərti torpaq sahibliyi yaratdı.
- ✓ Osmanlı imperatorluğunda vergi verən bütün əhaliyə reaya deyilirdi. Müsəlman əkinçiləri aşar adlandırılan ondabir vergisi verirdilər.
- ✓ Müsəlman olmayanlar ispəncə adlanan can vergisi verir və hərbi xidmətə çağırılmırdılar.

XVI əsrin əvvəllərində Osmanlı imperatorluğu Yaxın Şərqdə çoxlu ərazilər tutaraq regionun ən böyük dövlətinə çevrildi.

- **I Sultan Səlim** (1512-1520) 1516-ci ildə Hələb, Dəməşq və Fələstini, 1518-ci ildə isə Misiri tutdu.
- 1518-ci ildə türk donanması Xeyrəddin Barbarosun komandanlığı altında İspaniya donanmasını ağır məğlubiyyətə uğradaraq Əlcəzairi tutdu.
- Osmanlı imperatorluğunun ərazisi Sultan Səlimin fəthləri nəticəsində 2,5 dəfə artdı.
- **I Sultan Süleyman Qanuni** 1521-cı ildə Mərkəzi Avropanın açarı hesab edilən Belqradı ələ keçirdi.
- 1526-cı ildə Moxaç döyüşündə macar kralı II Layoşun macar-çex ordusunu məğlub edən osmanlılar Macarıstanın paytaxtı Buda şəhərini tutdular.
- I Sultan Süleyman Qanuni öz vassalı Yanoşu Macarıstan taxtına oturtdu. Budaya hücum etmiş Avstriya hersoqu Ferdinandı cəzalandırmaq üçün yürüşə çıxan I Sultan Süleyman 1529-cu ildə Vyananı mühasirəyə aldı.
- Lakin mövsümün əlverişsiz olması, hərbi ehtiyatların tükənməsi onu mühasirədən əl çəkməyə məcbur etdi.

❖ 1556-cı ildə Tripoli və onun ətrafı,
❖ 1564-cü ildə isə Tunis Osmanlı imperatorluğuna qatıldı.
❖ Beləliklə, bütün Şimali Afrika tutuldu. Osmanlı dövlətinin ərazisi üç qitəni (Asiya, Avropa, Afrika) əhatə edirdi.
❖ Əldə edilmiş qələbələr I Süleyman Qanuninin ölkə daxilində və xaricdə nüfuzunu artırdı.
❖ 1535-ci ildə Osmanlı imperiyası ilə Fransa arasında tarixə "kapitulyasiya" adı ilə daxil olmuş "sülh, dostluq və ticarət müqaviləsi" imzalandı. Müqavilə fəsillərə (kapitulyasiya latınca "fəsil" deməkdir) bölündüyü üçün belə adlanırdı.
❖ Çoxsaylı müharibələr külli miqdarda vəsait tələb etdiyindən hökumət vergiləri artırır, bu isə kəndli təsərrüfatlarının müflisləşməsinə səbəb olurdu.
❖ Hərbi qənimətin azalması və ordunun döyüş qabiliyyətinin zəifləməsi daxili ziddiyyətlərin kəskinləşməsinə gətirib çıxarırdı.

❖ Timar və ziyamət torpaq sahibliyinin parçalanması, eləcə də iri torpaq sahiblərinə çevrilmiş yenlçərilərln bir hissəsinin hərbi xidmətdən imtina etməsi hərbi-len sisteminin böhranına səbəb oldu.

❖ **II Sultan Səlim** (1565-1574) sancaqbəylərə timar və ziyamət torpaqlarının bölünməsini qadağan etməklə bu prosesin qarşısını almağa cəhd göstərdi.

❖ XVI əsr - XVII əsrin əvvəllərində baş vermiş üsyanlar ölkənin sosial- iqtisadi və siyasi dayaqlarına güclü zərbə vurdu.

❖ Qərb diplomatiyası Avropada Osmanlı işğallarının qarşısını almaq üçün onların hərbi gücünü Səfəvi dövlətinə qarşı yönəldə bildi.

❖ Səfəvi dövlətinin başının Osmanlı dövləti ilə müharibəyə qarışmasından istifadə edən Portuqaliya İran körfəzində möhkəmləndi.

# TEYMURİ İMPERATORLUĞU
# 1370-1507

❖ Teymurilər dövlətinin banisi Əmir Teymur (1370-1405) barlas türk tayfasından idi. Avropa mənbələrində onu Tamerlan adlandırırdılar.

❖ Teymurun cağatay hakimi Toğrulla mübarizə apardığı bir şəraitdə 1365-1366-cı illərdə Səmərqənddə monqol zülmünə qarşı sərbədarilər üsyanı baş verdi. Sərbədarilər İran və Mərkəzi Asiyada monqol əsarətinə qarşı xalq azadlıq hərəkatının iştirakçılarına deyilirdi. Üsyan Teymur tərəfindən qəddarlıqla yatırıldı.

❖ 1370-ci ildə Teymur Bəlx hakimi Əmir Hüseyni məğlub edib, mərkəzi Səmərqənd şəhəri olan Teymurilər dövlətinin əsasını qoydu.

❖ 1388-ci ildə Ürgənc şəhərini tutmaqla o, bütün Mərkəzi Asiyaya sahib oldu.

❖ 1380-1404-cü illərdə Teymur :

- ✓ İran,
- ✓ Azərbaycan,
- ✓ Qafqaz,
- ✓ İraq,
- ✓ Suriya,
- ✓ Kiçik Asiya və başqa əraziləri ələ keçirdi.

❖ 1398-ci ildə o, Sultan Mahmudu məğlub edərək Dehlini və Hindistanda müqəddəs şəhər hesab olunan Mitrunu tutdu.
❖ Hindistan səfərindən sonra Əmir Teymurun Kiçik Asiyada əsas rəqibi İldırım Bəyazid idi.
❖ Hər iki ordu Ankara düzənliyində qarşılaşdı.
❖ 1402-ci ildə osmanlılar Ankara döyüşündə məğlubiyyətə uğradılar. İldırım Bəyazidin Əmir Teymur tərəfindən məğlub edilməsi Osmanlı qoşunlarının Avropanın içərisinə doğru irəliləməsini ləngitdi.
❖ Teymur 1405-ci ildə Çinə hücum ərəfəsində Otrar şəhərində vəfat etdi.
❖ Onu Səmərqənddə dəfn etdilər.

**İmperatorluğun parçalanması.**
❖ Teymurilər dövləti uluslara bölünmüşdü.
❖ Ulusların başçıları olan əmirlər
✓ əsgər verməli,
✓ vergilərin yığılması və
✓ mükəlləfiyyətlərin yerinə yetirilməsinə nəzarət etməli idilər.

❖ Əmir Teymur iqtisadiyyatın inkişafına xüsusi diqqət yetirirdi.

❖ O, işğal etdiyi ölkələrin:

✓ ən yaxşı sənətkarlarını Səmərqəndə göndərir,

✓ Asiyadan Avropaya gedən ticarət yollarım öz nəzarəti altında saxlayır,

✓ irriqasiya işləri gördürür,

✓ şəhərlər inşa etdirirdi.

✓ Teymur və onun nəvəsi **Uluqbəyin** dövründə Səmərqənd sənətkarlıq və karvan ticarətinin mərkəzinə çevrilmişdi.

❖ Teymurun Fransa kralı VI Karla məktubu onun ticarəti himayə etməsini göstərir.

❖ Teymur nəvəsi Pir Məhəmmədi varis təyin etsə də, onun ölümündən sonra hakimiyyət uğrunda didişmələr və ara müharibələri, əsarət altına alınan xalqların mübarizəsi, daxili çəkişmələr dövləti zəiflətdi.

❖Onun oğlu **Şahrux** çəkişmələrə son qoydu və paytaxtı Herata köçürüb, Mavərənnəhri oğlu Uluqbəyə xanədan kimi verdi.

❖ Şahruxun ölümündən (1447) sonra çəkişmələr yenidən başladı.

❖ Sonuncu Teymuri hökmdarı Hüseyn Baykaranın ölümündən sonra, 1507-ci ildə Şeybanilər Teymurilər dövlətinin varlığına son qoydu.

## QAZAN XANLIĞI

❖ Qazan xanlığının əsası Ulu Məhəmməd (1437-1445) tərəfindən qoyulmuşdur.

❖ O, mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün:

✓ türk bəylərini,

✓ Volqa sahillərindəki çeremisləri, udmurtları və çuvaşları itaətə gətirdi;

❖ Volqa sahillərindən Şimali Qafqazadək uzanan keçmiş Bulqar türk dövlətinin ərazisində Qazan türk xanlığı yaratdı.

❖ Dövlətin paytaxtı Qazan şəhəri oldu.

❖ Xanlığı Moskva knyazlığından Sura çayı ayırırdı. Volqa - Xəzər ticarət yolu xanlığın ərazisindən keçirdi.

❖ Xəz dəri və meşin xanlığın başlıca ixracat məhsulları idi.

❖ Qazan şəhərində Şərq üslubunda tikilmiş hamamlar, karvansaralar, məscidlər fəaliyyət göstərirdi.

❖ Bütöv vilayətləri xandan iqta alan iri feodallar həmin ərazilərdən yasaq adlanan vergi toplayırdılar.

- ✓ Dövlətin başında **xan** dururdu.
- ✓ Sonrakı yeri xanın irsi məşvərətçisi sayılan kərəçlər tuturdular.
- ✓ Ən mühüm məsələləri həll etmək üçün xan bütün vassallarını qurultaya - bütün Qazan torpaqlarının Şurasına çağırırdı.
- ✓ «Qara camaat» hüquqsuz dövlətin idarəsinə buraxılmırdı.
- ✓ Kəndliləri "aksakkal" idarə edir,
- ✓ vergi işlərinə darğalar baxırdı.

- ❖ Ulu Məhəmməd 1444-cü il Suzdal döyüşündə Moskva knyazlığını məğlubiyyətə uğradaraq onu asılı vəziyyətə saldı.
- ❖ O, rus şəhərlərini idarə etmək üçün 500 nəfər türkü müxtəlif vəzifələrə təyin etdi.
- ❖ XV əsrin 60-cı illərində Moskva knyazlığı tez-tez xanlığa hücumlar təşkil edirdi.
- ❖ 1480-ci ildə Moskva knyazlığı Qızıl Ordunun asılılığından çıxdıqdan sonra Rusiya - Qazan münasibətləri daha da kəskinləşdi.

# HƏŞTƏRXAN XANLIĞI

❖ Həştərxan xanlığı XV əsrin birinci yarısında, demək olar ki, Qazan xanlığı ilə eyni vaxtda Qızıl Ordudan ayrılaraq müstəqil dövlətə çevrilmişdi. Paytaxtı Həştərxan şəhəri idi.
❖ Xanlığın əsası **Qasım xan** tərəfindən qoyulmuşdur. Ərazisi Aşağı Volqa sahillərindən başlayıb, Şimali Qafqazadək olan geniş ərazini əhatə edirdi.
❖ Əhalinin əsas məşğuliyyəti maldarlıq idi. Xanlığın ərazisində çoxlu balıq vətəgələri və duz gölləri var idi.
❖ Xan qeyri-məhdud hakimiyyətə malik idi. Ondan sonra böyük səlahiyyət bəylərin və ruhanilərin əlində cəmləşmişdi.
❖ "Qara camaat" adlanan təbəqə yasaq adlanan vergi ödəyirdi. Xanın oğulları arasından təyin olunan **kalqa** silahlı dəstələrin baş komandanı və xanın varisi hesab olunurdu.
❖ Əlverişli mövqeyə malik olan xanlıq ətraf ölkələrlə geniş ticarət əlaqələri saxlayırdı. Həştərxan Cənub və Şərq ölkələrinin ticarətində vasitəçilik edirdi. Qonşu ölkələrə xəz dəriləri, gön, balıq, duz və s. ixrac edilirdi.
❖ Ticarət əlaqələri xanlığın etnik tərkibinin dəyişməsinə gətirib çıxarmışdı. Rus torpaqlarından, Venesiyadan və başqa ölkələrdən Həştərxana çoxlu tacir gəlib burada məskunlaşırdı.

## KRIM XANLIĞI
## 1438-1783

XII əsrin birinci yarısında Krım yarımadasına türklərin axını gücləndi. Xəzər, Qıpçaq və Oğuz türkləri Krım türkləri adı altında birləşmişdilər.

❖ 1427-ci ildə Krımın irsi sahibi Teymurtaş özünü xan elan etsə də, dövlət yarada bilmədi.

❖ **Hacı Gəray xan** 1438-ci ildə Krım xanlığının müstəqilliyini elan edib, Gəraylar sülaləsinin əsasını qoydu.

❖ Xanlığın paytaxtı Baxçasaray şəhəri oldu.

❖ Qızıl Ordu dövləti onun müstəqilliyini tanıdı.

❖ Hacı Gəray xan noqayların və osmanlıların köməyi ilə bütün Krımı özünə tabe etdi.

❖ O, Çolxat adlı yerdə baş vermiş döyüşdə qalib gələrək Genuyaya məxsus Kəfə şəhərini xərac verməyə məcbur etdi.

❖ Hacı Gərayın vəfatından sonra iki oğlu - genuyalıların müdafiə etdiyi Nurdövlət və osmanlıların müdafiə etdiyi Məngli Gəray arasında mübarizə başladı.

❖ Osmanlılar 1475-ci ildə Genuyanı məğlub edib, Kəfə, Anapa, Sudak və s. qalaları tutdular.

❖ 1478-ci ildə Osmanlı sultanının fərmanı ilə Məngli Gəray xan elan edildi.

❖ Osmanlılar Məngli Gərayın qarşısında aşağıdakı şərtləri qoymuşdular:

1. Krımın sahilboyu əraziləri osmanlılarda qalırdı;
2. xan gələcəkdə də Gəraylı nəslindən olmaqla osmanlılar tərəfindən təyin edilməli idi;
3. xanlıq lazım gələrsə, osmanlılara hərbi yardım göstərməli idi;
4. sultan xanlığın daxili işlərinə qarışmırdı;
5. xan xarici dövlətlə əlaqə saxlaya bilərdi.

❖ Beləliklə, Krım xanlığı Osmanlı dövlətindən vassal asılılığına düşdü və bundan sonra Qara dəniz bütünlüklə türk dənizinə çevrildi.

❖ 1479-cu ildə Məngli Gəray Qızıl Ordu və Litvaya qarşı Böyük Moskva knyazı III İvanla ittifaq bağladı.

❖ III İvanın bu zaman iki məqsədi var idi:

1. Litva və Polşanı daim təzyiq altında saxlamaq;
2. Knyazlığın cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək.

- ❖ Məngli Gəray Litva ərazisinin bir hissəsini ələ keçirdi.
- ❖ 1482-ci ildə Kiyevi tutdu.
- ❖ Lakin Qızıl Ordu süqut etdikdən sonra Moskva knyazlığı daha Krım xanlığının güclənməsini istəmirdi.
- ❖ Onlar arasında münasibətlər pisləşdikdən sonra Krım xanlığı Moskvadan uzaqlaşdı və 3 əsrlik Krım - Rusiya mübarizəsi başladı.
- ✓ Krım xanının birinci vəliəhdinə kalqa deyilirdi.
- ✓ Kalqa Krımın ən böyük şəhəri Ağməsciddə (Simferopol),
- ✓ nurəddin adlanan ikinci vəliəhd isə Baxçasarayda otururdu.
- ✓ Krım xanlığı boy (nəsil) aristokratiyasına əsaslanırdı.
- ✓ Boya rəhbərlik edən bəylər xana tabe olub, onun yanında məşvərətçi orqan olan divanın üzvləri idilər.

## SİBİR XANLIĞI

❖ Sibir xanlığının əsasını XV əsrin sonlarında noqayların köməyi ilə İbak xan qoymuşdu.

❖ Paytaxtı Tümen şəhəri idi.

❖ O, Moskva knyazlığı, Qazan və Krım xanlıqları ilə dostluq əlaqələri saxlayırdı.

❖ 1495-ci ildə İbak xan öldürüldü, yerinə **Taybuğa nəslindən** olan Məhəmməd xan keçdi.

❖ O, paytaxtı **Sibir (Kaşlık)** şəhərinə köçürdüyü üçün xanlıq da Sibir xanlığı adlanmağa başladı.

❖ 1555-ci ildə Sibir xanı Yadigar xan Moskvadan vassal asılılığına düşdü və bac olaraq ildə min ədəd samur dərisi ödəməyə məcbur oldu.

✓ Sibir xanlığının maldarlıq üçün əlverişli olan çölləri barbara adlanırdı.

✓ Rus tacirləri xəz dəri almaq üçün Tümenə gəlirdi.

✓ Xanlığın əhalisi xana yasaq verən "qara camaat"a və yasaqdan azad olan bəylər və murzalara bölünürdü.

✓ Hakimləri xanın qohumu olan uluslar yasaqdan azad edilirdi.

✓ Əvvəllər əhali arasında şamançılıq ayin və mərasimləri yayılsa da, qonşu türk dövlətlərinin təsiri ilə XVI əsrin ortalarında **islam rəsmi din kimi qəbul edildi.**

## ORTA ƏSR ŞƏHƏRLƏRİ

❖ XI əsrdə Qərbi Avropada əkin sahələri genişlənmiş, ikitarlalı əkin üçtarlalı əkinlə əvəz olunmuş, təkərli kotan, su və yel dəyirmanları, xamut ixtira edilmişdi.

❖ Bütün bunlar əmək məhsuldarlığını artırmış, dəmirçilik, silahqayırma sənətləri inkişaf etmişdi. Yun parça toxuculuğu inkişaf etdiyinə görə xalq arasında belə bir məsəl də yaranmışdı: *"Qoyun kətana qalib gəldi".*

❖ Sənətkarlıq tədricən xüsusi məşğuliyyət sahəsinə çevrilərək kənd təsərrüfatından ayrıldı.

❖ Sənətkarlar feodal vergi və mükəlləfiyyətlərindən xilas olmaq üçün yaşayış yerlərini dəyişib, monastır və qəsrlərin yanında sonralar şəhərlərə çevrilən qəsəbələr salırdılar.

❖ Beləliklə, sənətin kənd təsərrüfatından ayrılması nəticəsində şəhərlər yarandı. Onların ətrafına müdafiə məqsədi ilə xəndək və sədd çəkildi.

❖ IX - XI əsrlərdə İtaliya və Cənubi Fransada şəhərlər yenidən dirçəldi və yeni şəhərlər meydana gəldi.

✓ Şəhərdə yeganə geniş yer bazar meydanı idi.

✓ Şəhərin baş kilsəsi-sobor,

✓şəhər surasının binası isə ratuşa adlanırdı.

## Sənətkarlıq və ticarət

❖ Şəhər sənətkarı xırda mülkiyyətçi idi. Şənətkar emalatxanası sahibinin şəxsi əməyinə, usta köməkçisi və şagirdlərin əl əməyinə əsaslanan, sifariş və ya satış üçün çalışan xırda sənaye müəssisəsi, sənətkarlıq isə xırda sənaye istehsalı idi.

❖ Usta olmaq üçün 2-8 il şagird işləmək, usta köməkçisi olduqdan sonra isə "usta" adı almaq üçün "şah əsər" hazırlamaq lazım idi.

❖ Emalatxanada əmək bölgüsü yox idi. İstehsalda və məhsulun satışında bütün ustalar üçün eyni şərait yaratmaq, məhsulun keyfiyyətinə nəzarət etmək məqsədilə eyni peşədən olan və bir şəhərdə yaşayan ustaların birliyi **- sexlər** yaranırdı.

❖ Ustaların ümumi yığıncağında nizamnamə qəbul edilirdi. Sexə ustaların seçdiyi ağsaqqallar başçılıq edirdi. Ağsaqqallar nizamnamənin yerinə yetirilməsinə nəzarət edirdilər. Onlar keyfiyyətli məhsul istehsal edilməsi və ustaların sifarişləri bir-birinin əlindən almaması üçün lazımi tədbirlər görürdülər.

❖ Hər sexin öz gerbi, bayrağı, kilsəsi olurdu. Sexlər uzun müddət sənətkarlığın inkişafına şərait yaratsa da, orta əsrlərin sonlarında istehsalın artmasına və texnikanın inkişafına mane olmağa başladılar.

## Şəhərlərin senyorlarla mübarizəsi

- Şəhər feodalların torpağında salındığından **feodal - senyor** şəhər əhalisindən vergi alır, sənətkar və tacirləri soyub talayırdı.
- Odur ki, XII—XIII əsrlərdə şəhərlər senyorlara qarşı mübarizə aparırdılar.
- Bu zaman şəhərlərin bir qismi qalib gələrək, digər qismi feodala ödənc verərək azad oldular.
- Azad olmuş və özünüidarə hüququ qazanmış şəhərə **Şəhər Şurası** başçılıq edirdi.
- Şəhər Şurası məhkəməyə, qoşuna, xəzinəyə nəzarət edirdi.
- Azad olmuş şəhərlər daha sürətlə inkişaf etməyə başladılar. Əmtəə istehsalı genişləndi.
- **Əmtəə** - satış, bazar üçün istehsal edilən məhsuldur.
- Tacirlər başqa şəhərlərə və ölkələrə məhsul apararkən quldurların basqınlarına məruz qalırdılar.
- Onlar quldur soyğunlarından qorunmaq üçün tacir birlikləri - **gildiyalar** yaradırdılar.
- Əvvəllər Avropanın Şərqlə ticarətində başlıca yeri Bizans tuturdu.

- XIII əsrdən başlayaraq bu sahədə Venesiya və Genuya üstünlük qazandı.
- Şərqdən gətirilən ədviyyat məhsulları Avropada qızıl qiymətinə satılırdı.
- Novqoroddan Londona qədər Şimal və Baltik dənizlərindən keçən ticarət yollarından Şimali Avropa ölkələri istifadə edirdilər.
- Şimal ticarətinin mərkəzi **Brükge şəhəri** idi.
- Baltik dənizində ticarəti öz əlinə almaq üçün **70 alman şəhəri** XIV əsrdə "Hanza" (almanca «ittifaq» deməkdir) təşkilatı yaratdı.
- Hanza təşkilatına Lübek şəhəri başçılıq edirdi.
- Ən qızğın ticarət yeri yarmarka idi. XIII əsrdə məşhur yarmarka Fransada **Şampan yarmarkası** idi.
- Yarmarkalarda tədricən sərraflar və sələmçilər meydana çıxdı. Sərraf və sələmçilər arasından ilk bankirlər meydana gəldi.
- Bank italyanca "idarə stolu" deməkdir.
- Ən böyük bank İtaliyada idi.
- Ticarət və pul əməliyyatları sayəsində tacir və bankirlərin əlində külli miqdarda sərvət toplanırdı.

## SƏLİB (XAÇ) YÜRÜŞLƏRİ
## 1096-1270

**Xristian kilsəsi.**

- ❖ XI əsrin ortalarına qədər xristian kilsəsi vahid olsa da, ona Qərbi Avropada Roma papası, Bizansda Konstantinopol patriarxı başçılıq edirdi.
- ❖ Bolqar, Serbiya və Kiyev dövlətləri xristianlığı Bizansdan qəbul etmişdi.
- ❖ Xristian kilsəsinə ağalıq etmək və gəlirləri bölüşdürmək uğrunda mübarizə 1054-cü ildə xristian kilsəsinin **Qərb və Şərq kilsələrinə** parçalanması ilə nəticələndi.
- ❖ Həmin dövrdən etibarən
  - ✓ Qərb kilsəsi - katolik (ümümdünya),
  - ✓ Şərq kilsəsi - pravoslav (həqiqi) adlandı.
- ❖ Konstantinopol patriarxı Bizans imperatorundan asılı olduğu halda, İtaliyada Papa vilayəti adlı ayrıca dövləti olan katolik papası Qərbi Avropa hökmdarlarını tabe etməyə çalışırdı.
- ❖ Katolik kilsəsi çoxlu feodal mülklərinə parçalanmış **Qərbi Avropada yeganə mütəşəkkil qüvvə idi.**

❖ XI əsrin sonlarında papa VII Qriqori ilə Almaniya Imperatoru IV Henrix arasında Almaniyada yepiskop təyin etmək üstündə mübarizə başlandı.

❖ Kral papanı hakimiyyətdən salınmış hesab etdi.

❖ VII Qriqori IV Henrixi lənətlədi.

❖ IV Henrix üzr istəmək üçün papanın Şimali İtaliyadakı Kanossa qəsrinə getdi və çətinliklə də olsa bağışlanmasına nail oldu.

❖ Bu hadisədən sonra **«Kanossaya getmək»** ifadəsi yarandı. «Kanossaya getmək» - məcburiyyət qarşısında alçalaraq güzəştə getmək mənasında işlənir.

❖ Papalarla Almaniya imperatorları arasında 200 illik mübarizə papanın qələbəsi ilə nəticələndi.

❖ III İnnokentinin dövründə (1198-1216) katolik kilsəsi özünün ən qüdrətli dövrünü yaşayırdı.

❖ İngiltərə, Polşa, İsveç, Danimarka kralları onun vassalları idilər.

❖ Qərbi Avropada becərilən torpaqların üçdəbiri katolik kilsəsinə məxsus idi.

❖ Ruhaniləri saxlamaq üçün:
✓ bütün Qərbi Avropa əhalisindən alınan ondabir vergisi,
✓ mərasimlərdən toplanan vəsait,
✓ kilsə torpaqlarından gələn gəlirlər katolik kilsəsinin xəzinəsinə daxil olurdu.
✓ Papa günahların bağışlanması haqqında fərmanlar - indulgensiyalar (cənnət qəbzləri) verməklə də varlanırdı.
❖ Kilsənin varlanmasına qarşı çıxanları ruhanilər **"bidətçi"** (dönük) adlandırır,
❖ onları **kilsə məhkəməsinə - inkvizisiyaya** (inkvizisiya - "təhqiqat" deməkdir) cəlb edirdilər.

# SƏLİB YÜRÜŞLƏRİ

❖ 1095-ci ildə Fransanın Klermon şəhərində çıxış edən Roma papası II Urban xristianları "İsanın qəbrini kafirlərdən azad etmək üçün" müsəlman Şərq ölkələrinə yürüşə çağırdı.

❖ Ağır vəziyyətdə olan kəndlilər feodalların zülmündən qurtulmaq, feodallar və ruhanilər isə yeni mülklər ələ keçirmək üçün bu yürüşlərdə iştirak etməkdə maraqlı idilər.

❖ Xaç yürüşlərinin iştirakçıları qollarına qırmızı parçadan xaç (səlib) tikdikləri üçün bu yürüşlər xaç (səlib) yürüşləri adlandı.

❖ Yürüş iştirakçıları belə hesab edirdilər ki, Səlcuq imperiyası parçalandığı üçün Şərq ölkələrini ələ keçirmək asan olacaqdır.

❖ Roma papası Şərq ölkələrini ələ keçirməklə gəlirlərini artırmaq istəyirdi.

❖ 1096-cı ilin yazında kəndlilər, onların ardınca isə Fransa, Almaniya və İtaliya cəngavərləri ilk yürüşə başladılar.

❖ Onlar 1099-cu ildə Suriya və Fələstinin Aralıq dənizi sahillərini tutaraq səlibçi dövlətlər yaratdılar. Bu dövlətlərdən ən böyüyü **Qüds krallığı** idi.

❖ Qalan səlibçi dövlətlər Qüds krallığının vassalları idilər.

❖ Səlibçilərin 1147-ci ildə başlayan ikinci yürüşü 1149-cu ildə uğursuzluqla nəticələndi.
❖ Bir qədər sonra Misir hökmdarı Səlahəddin Əyyubi Qüdsü azad etdi (1186).
❖ 1189-1192-ci illərdə Qüds şəhərini geri qaytarmaq məqsədilə İngiltərə, Fransa və Almaniya krallarının təşkil etdikləri üçüncü yürüş də uğursuz oldu.
❖ Dördüncü səlib yürüşünə (1199-1204) papa III İnnokenti şəxsən özü başçılıq edirdi;
✓ Yürüş dəniz yolu ilə həyata keçirildi.
✓ Bu zaman Bizansın ticarət rəqibi, "dənizlər kraliçası" Venesiyadan gəmilər icarəyə götürüldü.
✓ Venesiya Bizansa zərbə vurmaq üçün bu yürüşdən istifadə etdi.
❖ 1204-cü ildə Konstantinopolu tutaraq Müqəddəs Sofiya kilsəsini qarət etdilər.
❖ Səlibçilərin əsl məqsədinin qarətçilikdən ibarət olması bu yürüşdə özünü göstərdi.
❖ 1261-ci ildə səlibçilər Konstantinopoldan qovuldular.
❖ Sonuncu - səkkizinci xaç yürüşündən (1270) sonra XIII əsrin sonlarında səlibçilər tutduqları bütün torpaqları itirdilər.

❖ Onlar Şərq ölkələrini işğal edə bilmədilər.

❖ Lakin bu yürüş nəticəsində ticarətdə birincilik Bizansdan Şimali İtaliya şəhərlərinə - Venesiya və Genuyaya keçdi.

❖ Onlar:

✓ Suriya, Fələstin, Krım və Qafqazda ticarət məskənləri yaratdılar.

❖ Səlibçilər bu yürüşlər nəticəsində Şərqdən bir çox yeniliklər öyrəndilər. Avropalılar :

✓ yeni kənd təsərrüfatı bitkiləri (çəltik, limon, qarpız və s.) və

✓ yel dəyirmanları,

✓ habelə kağız,

✓ barıt və

✓ kompas ilə tanış oldular.

✓Onlar ipək parçalar toxumağı,

✓güzgü düzəltməyi,

✓yeməkdən qabaq əlləri yumağı,

✓isti hamamda çimməyi öyrəndilər.

## FRANSA

❖ 843-cü il Verden müqaviləsinə əsasən yaranmış Qərbi Frank krallığı sonralar Fransa krallığı adlandı.

❖ X əsrdə burada Karolinqlər sülaləsinin hakimiyyəti zəifləmişdi. Şimali Fransada Normandiya hersoqluğu ən iri feodal mülkü idi.

❖ Bretan və Flandriya feodal mülkləri də güclənmişdi.

❖ X əsrin sonlarında Fransada Kapetinqlər sülaləsinin hakimiyyəti başladı.

❖ Bu sülalənin mülkləri Paris və Orlean şəhərləri idi.

❖ Hersoq və qraflar kralı yalnız «bərabərlər içərisində birinci» hesab edirdilər.

❖ X-XI əsrlərdə Fransada feodal münasibətlərinin formalaşması başa çatdı.

**Fransanın birləşdirilməsinin başlanması.**

✓ XI əsrdə Fransa feodal mülklərinə parçalanmışdı.

✓ Kral bütün ölkə miqyasında qanun verə bilmirdi.

✓ O, bütün ölkədən vergi toplamaq ixtiyarına da malik deyildi.

✓ Odur ki gəliri az olan kralın daimi ordusu və dövlət aparatı yox idi.

❖ Vilayətlər arasında əmək bölgüsünün yaranması, iqtisadi əlaqələrin genişlənməsi, şəhərlərin artması ölkənin birləşdirilməsi üçün imkan yaradırdı.

❖ Digər tərəfdən kəndlilərin müqavimətini qırmaq istəyən feodallar, sənət və ticarətin inkişafında maraqlı olan sənətkar və tacirlər, senyor zülmündən xilas olmaq istəyən şəhərlər, eləcə də iri feodallar tərəfindən sıxışdırılan cəngavərlər mərkəzi hakimiyyətin gücləndirilməsini istəyirdilər.

❖ Ümumiyyətlə, mərkəzləşdirmə siyasətini həyata keçirən kralın əsas dayağı :

✓xırda, orta feodallar,

✓ şəhərlilər və kəndlilər idi.

❖ İri feodallar və kilsə mərkəzləşdirmə siyasətinə mane olurdu.

Əhali üç silkə (zümrəyə) bölünürdü:

1) ruhanilər;

2) zadəganlar;

3) qalan əhali (burada varlı şəhərlilər daha üstün idi).

❖ Kral pul və işgüzar məsləhətlər almaq üçün şəhər varlılarını Kral Şurasının iclaslarına dəvət edirdi.

## **Baş Ştatlar** -1302

❖ Fransanın ərazisinin yarıdan çoxu İngiltərə krallığına daxil idi.
✓ XIII əsrdə Normandiya,
✓ az sonra Tuluza Fransaya birləşdirildi.
✓ Akvitaniyanın bir hissəsi ingilislərin əlində qaldı.
✓ **IV Gözəl Filippin** hakimiyyəti dövründə (1285-1314) Şampan və Navarra kral torpaqlarına birləşdirildi.

❖ IV Filippin pul əldə etmək məqsədi ilə kilsə torpaqları üzərinə vergi qoyması Roma papasının narazılığına səbəb oldu.

❖ O, papaya qarşı mübarizədə silklərdən kömək almaq üçün 1302-ci ildə ruhani, zadəgan və şəhər varlılarından ibarət məclis - Baş Ştatlar çağırdı.

❖ Beləliklə, XIV əsrin əvvəlində Fransada nümayəndəli (silki) monarxiya yarandı.

❖ Bu, mərkəzləşmiş dövlətin yaranmasında birinci mərhələ idi.

❖ Bu zaman kral hakimiyyəti hələ o qədər də güclü deyildi və o, Baş Ştatlara arxalanaraq dövləti idarə edirdi.

❖ Lakin silklər arasındakı ixtilaflar Baş Ştatların dövlət işinə təsirini azaldırdı.

**Yüzillik müharibə**
**1337-1453**

❖ IV Gözəl Filippin ölümündən sonra İngiltərə ilə Fransa arasında münasibətlər kəskinləşdi və onların arasında tarixdə Yüzillik müharibə (1337-1453) adlanan uzunmüddətli müharibə başladı.

❖ Yüzillik müharibənin əsas səbəbləri bunlar idi:

1) İngiltərənin Fransada itirdikləri mülkləri geri almaq cəhdi;
2) Flandriya uğrunda mübarizə;
3) IV Filippin vəfatından sonra ingilis kralının Fransa taxtına iddiası.

❖ Bu zaman Flandriya şəhərləri İngiltərəni müdafiə edirdilər.

❖ Çünki onlar arasında sıx ticarət əlaqələri var idi.

❖ Yüzillik müharibədə Fransa ordusu nizamsız atlı cəngavərlərdən və muzdlu piyadalardan ibarət idi.

❖ İngilislər daha yaxşı təşkil olunmuş ordu və donanmaya malik idilər. Onların piyada qoşunu azad kəndlilərdən təşkil olunmuşdu.

❖ Normandiyanı tutan ingilislər 1346-cı ildə **Kresi döyüşündə** qələbə qazandılar.

❖ 1356-cı il **Puatye döyüşündə** də qalib gələn ingilislər Fransa kralını əsir aldılar.

❖ 1358-ci ildə Fransanın şimal-şərqində feodal zülmünə qarşı "Jakeriya" üsyanı baş verdi.
✓ Fransada zadəganlar kəndliləri kinayə ilə "Jak" adlandırırdılar.
✓ Şəhərlilər bu üsyana qoşulmadılar.
✓ Zadəganlar üsyanın başçısı Gilyom Kalı aldadaraq danışığa dəvət edib əsir aldılar. Kal edam edildi. Üsyançılar arasında birliyin olmaması, onların pis silahlanması üsyanın məğlubiyyətinə gətirib çıxartdı.
❖ Buna baxmayaraq üsyandan sonra feodallar mükəlləfiyyətləri artırmağa cəsarət etmədilər, kəndlilərin şəxsi asılılıqdan azad edilməsi sürətləndi.
❖ XV əsrdə təhkimli kəndli vəziyyətində qalanların sayı lap az idi və kəndlilər öz təsərrüfatını nisbətən inkişaf etdirmək imkanı qazanmışdılar.
❖ 1360-cı ildə İngiltərə ilə Fransa arasında sülh müqaviləsi bağlandı. Bundan istifadə edən Fransa yeni muzdlu ordu və donanma yaratdı. İlk dəfə qalaları dağıtmaq üçün ağır toplar düzəldildi.
❖ Az sonra fransızlar müharibəyə başladılar və ilk vaxtlar bəzi uğurlar qazandılar.

❖ Lakin onların arasındakı çəkişmələrdən istifadə edən İngiltərə 1415-ci ildə **Azenkür döyüşündə** qələbə qazandı.

❖ Burqundiya hersoqu İngiltərənin tərəfinə keçdi.

❖ Paris tutuldu, Orlean isə mühasirəyə alındı.

❖ Fransanın taleyi həll olunurdu.

❖ Belə bir vaxtda tarix səhnəsinə çıxan **Janna D'Ark** 1429-cu ildə Orleanı mühasirədən azad etdi.

❖ Bu, müharibənin gedişində Fransanın xeyrinə dönüş yaratdı.

❖ Reyms şəhərində Fransa kralının tacqoyma mərasimi keçirildi.

❖ Lakin feodalların xəyanəti nəticəsində burqundlar Janna D'Arkı Kompyen meşəsində ələ keçirib ingilislərə satdılar.

❖ O, 1431-ci ildə Ruan şəhərində tonqalda yandırıldı.

❖ 1453-cü ildə sülh müqaviləsi bağlandı və Yüzillik müharibə başa çatdı.

❖ İngilislər Fransa torpağından qovuldular və yalnız Kale limanı ingilislərin əlində qaldı.

❖ Müharibə başa çatdıqdan sonra Fransa kralı XI Lüdoviq (1461-1483) Burqund hersoqu İgid Karlla 12 illik mübarizədə məğlub olsa da, az sonra onu hiylə ilə öldürtdü.

❖ O deyirdi: "Hiyləgərliyi bacarmayan hökmranlıq edə bilməz".

❖ Bundan sonra:

1) Burqundiya,
2) Marsel və
3) Bretan Fransaya birləşdirildi.

❖ XV əsrdə Fransanın birləşdirilməsindən sonra:

✓ bütün ölkə krala tabe oldu;
✓ hersoqlar tabe edildi;
✓ daimi qoşun yaradıldı;
✓ ordu saxlamaq üçün əhalidən illik vergi alınmasına başlandı;
✓ təsərrüfat və mədəniyyətin inkişafı üçün şərait yarandı.
✓ Lion şəhəri ipəkçilik mərkəzinə çevrildi.
✓ Ticarət donanması yaradıldı.

## Fransa XVI-XVII əsrlərdə

❖ Fransa XVI əsrdə əhalisinin sayına görə Avropada ən böyük dövlət idi.
❖ Ölkədə sənaye və ticarət inkişaf edir, manufakturalar açılırdı.
❖ Fransada yeni yaranmaqda olan burjuaziya vergilərdən xilas olmaq üçün zadəgan olmağa çalışırdı.
❖ Burjuaziya borc faizləri toplamaq, iltizam hüququ almaq və gəlirli vəzifələr tutmaq yolu ilə sərvət toplayırdı.
❖ Varlılar ayrı-ayrı vilayətlərdən vergi toplamaq hüququnu kraldan satın alırdılar.
❖ Bu, "iltizam hüququ" adlanırdı.

**Rişelye (1624-1642).**

❖ 1624-cü ildə Fransa katolik kilsəsinin başçısı kardinal Rişelye XIII Lüdoviqin birinci naziri oldu.
❖ O, krala müqavimət göstərən əyanların gizləndiyi qəsrləri dağıtdırdı və zadəganlar arasındakı təkbətək döyüşü - dueli qadağan etdi.
❖ Nəticədə feodal əyanlarının müqaviməti qırıldı və mərkəzi hakimiyyət möhkəmləndirildi.
❖ Mütləqiyyət yarandı.

## İNGİLTƏRƏ

❖ 1066-ci ildə Normandiya hersoqu Vilhelm Qastinqs döyüşündə anqlo-saksların azad kəndlilərdən ibarət ordusunu hərbi hiylə yolu ilə məğlub edərək İngiltərənin paytaxtı Londonu tutdu.

❖ Fateh Vilhelm İngiltərə kralı oldu.

❖ Normand işğalı İngiltərədə mərkəzləşdirilmiş dövlət yaradılmasının başlanğıcı oldu.

❖ Fateh Vilhelm kəndliləri təhkimli vəziyyətinə saldı, bütün torpaq veehalini siyahıya aldı.

❖XII əsrdə İngiltərədə kral hakimiyyəti daha da gücləndi.

❖ Kral II Henrixin hakimiyyəti dövründə "andlı məhkəmə" yarandı.

✓ İstintaq Bibliyaya and içmiş 12 yerli sakin tərəfindən aparılırdı.

✓ İstintaqın nəticələri kral məhkəməsinə təqdim edilirdi.

✓ Hər bir azad adam yerli feodalın başı üstündən birbaşa kral məhkəməsinə müraciət edə bilərdi.

❖ Əvvəllər kralın hərbi yürüşlərində iştirak etməyə borclu olan cəngavərlərdən isə hərbi xidmət əvəzinə "qalxan pulu" adlı xüsusi haqq alınmağa başlandı. Bu pulla kral daimi və nizami muzdlu qoşun saxlayırdı.

❖Feodal zülmünə qarşı mübarizə aparanları "azad oxatanlar" adlandırırdılar. Xalq onlara "balladalar" qoşurdu. XIV əsrdə bu balladaların qəhrəmanı Robin Qud daha məşhur idi.

**İngiltərədə parlamentin yaranması.**

❖ Bir tərəfdən ağır vergilərə qarşı çıxan şəhərlilərdən qorxan kral, digər tərəfdən kəndli çıxışlarından vahiməyə düşən feodallar öz aralarında razılığa gələrək 1265-ildə parlament çağırdılar.

❖ Parlament XIV əsrdə lordlar və nümayəndələr palatasına bölündü.

➢ Lordlar palatasına:

1. yepiskoplar,
2. abbatlar və
3. feodallar,

➢ nümayəndələr palatasına

1. hər qraflıqdan iki cəngavər,
2. hər şəhərdən iki şəhərli seçilirdi.

❖ Fransadan fərqli olaraq burada cəngavər və şəhərlilər arasında ixtilaf olmadığı üçün İngiltərə parlamenti Fransa Baş Ştatlarına nisbətən daha güclü idi və dövlət işlərinə güclü təsir göstərə bilirdi.

❖ Parlament vergilərin təyin olunmasında və qanunların hazırlanmasında iştirak edirdi.

❖ XIII—XIV əsrlərdə İngiltərədə silki monarxiya formalı mərkəzləşdirilmiş dövlət yarandı.

## Uot Tayler üsyanı - 1381

❖ XIV əsrdə İngiltərədə taun xəstəliyi nəticəsində əhalinin sayı azalmışdı. Bu zaman iri feodallar kəndliləri zorla biyara çıxarmağa başladılar. Xırda və orta feodalların təkidi ilə parlament yoxsulları az əmək haqqı ilə işləməyə məcbur edən qanun qəbul etdi.

❖ Feodal zülmünün güclənməsi, amansız qanunlar, vergilərin artırılması üsyana səbəb oldu.

❖ 1381-ci ildə Uot Taylerin başçılığı altında kəndli üsyanı başladı.

❖ Uot Tayler üsyançı dəstələrində hərbi qayda-qanun, döyüş intizamı yaratmağa çalışırdı. Üsyançılar məhbusları azad edir, kral məmurlarını qırırdılar. Onlar Londona daxil olaraq Tauer qəsrində gizlənmiş kraldan :

➢ təhkimçiliyin, biyarın ləğv edilməsini və torpaqdan istifadə haqqının azaldılmasını tələb etdilər. Kral bu tələbləri yerinə yetirəcəyinə vəd verdi. Bundan sonra üsyançıların çoxu şəhəri tərk etdi.

➢ Şəhərdə qalan Uot Tayler örüş və meşələrin geri qaytarılması, kilsə torpaqlarının müsadirə edilib kəndlilərə paylanması, bütün adamlara hüquq bərabərliyinin verilməsi kimi yeni tələblər irəli sürdü.

❖ Danışıqlar zamanı Uot Tayler öldürüldü. Üsyan yatırılsa da:

✓ feodallar bir daha kəndliləri biyara çıxarmadılar,

✓ yoxsullara qarşı amansız qanunlar isə yumşaldıldı.

**Al qızılgül və Ağ qızılgül müharibələri**

❖ Yüzillik müharibədən sonra 1455-ci ildə İngiltərənin daxilində iki sülalə arasında hakimiyyət uğrunda 30 il davam edən müharibə başladı.

❖ Bu sülalələrdən birinin gerbində al qızılgül, digərinin gerbində isə ağ qızılgül təsvir olunduğuna görə müharibəni Al qızılgül və Ağ qızılgül müharibələri adlandırırdılar.

❖ Vuruşan tərəflər bir-birini taqətdən saldılar.

❖ Nəticədə VII Henrix Tüdör hakimiyyətə gəldi.

❖ Beləliklə, İngiltərədə **Tüdorlar** sülaləsinin hakimiyyəti (1485-1603) başlandı.

❖ VII Henrix:

✓ itaət etməyən feodallara divan tutdu,

✓ nümayəndələr palatasının hüquqlarını azaltdı.

## İngiltərədə çəpərləmələr.

❖ XVI əsrdə yun parçaya tələbatın artması ilə əlaqədar toxuculuq manufakturalarının sayı çoxaldı.

❖ ilk manufaktura hələ XIV əsrdə İtaliyada yaranmışdı. Manufaktura əl əməyinə, əmək bölgüsünə, muzdlu əməyə əsaslanan iri kapitalist müəssisəsi idi. Onların meydana gəlməsinin iki yolu vardı:

1. kəndli kustar istehsalının artması;
2. şəhər sənətkar emalatxanasının inkişaf edərək manufakturaya çevrilməsi.

❖ Manufakturalarda yuna olan tələbata görə zadəganlar qoyunçuluğu inkişaf etdirmək üçün kəndli torpaqlarını ələ keçirir, həmin torpaqları icmadan ayırıb çəpərləyirdilər. Çəpərləmələr nəticəsində kəndlilər torpaqlarını və istehsal vasitələrini itirərək kapitalistlər üçün ucuz işçi qüvvəsinə çevrilirdilər. Çəpərləmələrlə əlaqədar İngiltərədə "qoyunlar adamları yeyir" ifadəsi yarandı.

❖ Öz təsərrüfatını yəni qaydada qurub muzdlu əmək tətbiq edən zadəganlar "yeni zadəganlar" adlanırdı. Digər tərəfdən varlı kəndlilər də meydana çıxırdı. Onlar iri feodallardan torpaq icarəyə götürüb, orada muzdlu əmək tətbiq edirdilər. Belə icarədarlar fermer adlanırdı.

❖ Çəpərləmələr ölkədə səfil və dilənçilərin artmasına səbəb oldu. Dövlət onlara qarşı "qanlı qanunlar" adı almış "işçi qanunlar"ı qəbul etdi. Həmin qanunlarla avara həyat sürənlərə çox ağır cəzalar verirdilər.

❖ Hökumət bu yolla kəndlini muzdlu fəhləyə çevirməyə çalışırdı.

❖ Robert Ket üsyanı – 1549-cu il.

## Müstəmləkələr uğrunda mübarizə

❖ Yun parça və mahud istehsalına tələbatın artması ilə bağlı xarici ticarət inkişaf edirdi.

❖ **Kraliça Yelizaveta (1558-1603)** ticarət və sənayenin inkişafını himayə edirdi.

❖ Ayrı-ayrı şirkətlər yaradılırdı:

1. Şimal ölkələri və Səfəvi dövləti ilə ticarət etmək üçün "Moskva",
2. Ümid burnundan Şərqə tərəf olan ölkələrlə ticarət etmək üçünsə 1600-cü ildə **"Ost-Hind"** şirkəti yaradıldı.

- ✓ İngiltərənin xarici ticarətində qul alveri xüsusi yer tuturdu. Bununla çox zaman dəniz quldurları məşğul olurdular.
- ✓ Qul alveri sahəsində Con Hokins adlı ingilis gəmi sahibi daha məşhur idi.
- ✓ Afrikadan əldə etdiyi qulları İspaniya müstəmləkələrində satmağa icazə verməyən ispan qubernatorlarını top atəşləri ilə razı" saldığına görə Yelizaveta Hokinsə "cəngavər" rütbəsi verdi.

❖ İngilis **dəniz quldurı Frensis Dreyk** Amerika sahillərində ispan gəmilərini soyurdu.

❖ XVI əsrdə dəniz ticarətində İngiltərənin **əsas rəqibi İspaniya** idi.

❖ Kraliça Yelizaveta ispan kralının başqa ölkələrin İspaniyanın Amerikadakı müstəmləkələri ilə ticarətini qadağan edən fərmanını pozurdu.

❖ Bu zaman Yelizavetanın iki əsas məqsədi vardı:

1. sərvət toplamaq;
2. dənizlərdə ağalığı İspaniyanın əlindən almaq.

❖ 1588-ci ildə top atəşinin dəqiqliyi və gücünə görə ispan gəmilərindən üstün olan ingilis donanması ilə ispanların **"Məğlubedilməz armada"** adlanan donanması La-Manş boğazında qarşılaşdı.

❖ Yüngül və sürətli ingilis gəmiləri sayca üstün olan ispan donanmasım məğlub edərək Şimal dənizinə sıxışdırdı.

❖ «Məğlubedilməz armada»nın məhvi İspaniyanın dəniz qüdrətini sarsıtdı. Dənizlərdə ağalıq İngiltərəyə keçdi.

❖ XVII əsrin əvvəllərində ingilislər Şimalı Amerikanın **şərqində ilk müstəmləkələrini yaratdılar və buranı Virciniya** adlandırdılar.

❖ «Ost-Hind» şirkəti Asiyada portuqaliyalıları sıxışdırırdı.

❖ Bu şirkət rüşvət yolu ilə Böyük Moğol dövlətindən Hindistanda gömrüksüz ticarət etmək hüququ aldı.

❖ İngilislər Hindistanda möhkəmlənmək üçün buradakı ticarət məskənlərini qalalara çevirirdilər.

# ÇEXİYA

❖ XIV əsrin ortalarında çex kralı I Karlın (1346-1378) "Müqəddəs Roma imperiyasının imperatoru seçilməsi ilə Çexiya bu imperiyanın tərkibində qüdrətli dövlətə çevrildi.
❖ I Karlın dövründə təsərrüfat yüksəliş dövrü keçirirdi.
❖ Ölkə gümüş istehsalına görə Avropada birinci yerə çıxdı.
❖ Praqa şəhəri "Müqəddəs Roma imperiyası"nın paytaxtı oldu.
❖ I Karlın zamanında Karl körpüsü salındı, Müqəddəs Vita kilsəsinin əsası qoyuldu və Praqa Universiteti açıldı.
❖ Bütün bunlara baxmayaraq kəndlilərin vəziyyəti yenə ağır idi. Kralın əmri ilə kəndlilərin iri torpaq sahibi olan feodallardan - **panlardan** şikayət etmək qadağan idi.
❖ Ən iri torpaq sahibi olan katolik kilsəsinin özbaşınalığı nəinki kəndliləri, hətta feodalları da narazı salırdı. Onlar kilsə mülklərini ələ keçirmək istəyirdilər.
❖ Çexiyanı təkcə katolik kilsəsi deyil, bütün "Müqəddəs Roma imperiyası"nda ağalıq edən almanlar da soyub talayırdılar.
❖ Bütün vəzifələr almanların əlində idi. Müasirləri deyirdilər: "Çex öz vətənində elə yaşayır ki, elə bil buraya sürgün edilmişdir”.

❖ XV əsrin əvvəlində Praqa Universitetinin professoru **Yan Qus** öz çıxışında kilsəni tənqid edərək ruhaniləri torpaq və sərvətlərdən əl çəkməyə çağırdı.

❖ O bildirdi ki, kilsə Roma papasına deyil, Çex kralına tabe olmalıdır.

❖ O, çexləri yadellilərə qarşı mübarizəyə çağırsa da, feodalizmə qarşı çıxmırdı. Praqanın baş yepiskopu Yan Qusu kafir elan etdi.

❖ İmperator onun təhlükəsizliyinə təminat verdi və onu öz fikirlərini sübut etmək üçün Almaniyanın **Konstans şəhərində** keçirilən kilsə məclisinə çağırdı. Lakin Yan Qusa verilən vədə əməl olunmadı.

❖ 1415-ci ildə öz fikrindən dönməyən Yan Qus tonqalda yandırıldı.

❖ **Qusçular hərəkatı (1419-1434).**

❖ Yan Qusun davamçıları olan qusçular 1419-cu ildə Praqada üsyan qaldırdılar. Şəhər üsyançıların əlinə keçdi. Qusçular iki hissəyə bölünmüşdü;

1. Tabor dağında toplanmış **taborçular.** Onların əsas qüvvəsini kəndlilər, xırda sənətkarlar, şəhər yoxsulları və yoxsullaşmış cəngavərlər təşkil edirdi. Taborçuların əsas məqsədi feodal mükəlləfiyyət və vergilərini ləğv edərək feodalların torpaqlarını ələ keçirmək, yadelli ağalığına və kilsə zülmünə son qoymaq idi.
2. Varlı ustalar, tacirlər və iri feodallardan ibarət olan **mötədillər.** Onlar yalnız yadelli ağalığına və katolik zülmünə qarşı çıxırdılar.

- Roma papası qusçulara qarşı səlib yürüşü elan etdi. Alman imperatorunun başçılıq etdiyi beş səlib yürüşü qusçuların xalq qoşunu (sənətkarlar, şəhər yoxsulları, kəndlilər) tərəfindən dəf edildi.
- Qusçular ilk dəfə səhra toplarından istifadə etməyə başladılar.
- Xalq qoşununa düşmənlərinin "Müdhiş kor" adlandırdığı **Yan Jijka** başçılıq edirdi. Döyüşlərin birində həlak oldu. Taborçular onun ölümündən sonra özlərini "yetim" adlandırdılar.
- Hərəkat zamanı artıq kilsə torpaqlarını ələ keçirmiş mötədillər üsya- nın feodal qaydalarına qarşı yönəldilməsindən narahat oldular.
- Roma papası və alman imperatoru mötədillərə tutduqları torpaqlara toxunmamaq vədi verib onları öz tərəfinə çəkdilər.
- Mötədillər 1434-cü ildə **Lipani yaxınlığında** taborçularla döyüşə girib onları məğlub etdilər.
- Qusçular hərəkatı Jakeriya və Uot Tayler üsyanlarından daha yaxşı təşkil olunmuş, bütün ölkəni bürümüş və daha uzun sürmüşdü.
- Bu hərəkat katolik kilsəsinə güclü zərbə vurdu, yadellilərin zorakılığı sarsıldı, çex dili alman dilini sıxışdırdı. Bu hərəkat digər Avropa ölkələrində də katolik kilsəsinə və feodallara qarşı mübarizəyə təkan verdi.

# İSPANİYA

VIII əsrin ortalarında Pireneydə yaranmış müstəqil ərəb dövlətinin - **Kordova xilafətinin** əhalisi mavrlar adlanan ərəblərdən və Şimali Afrikanın bərbər adlanan müsəlman tayfalarından ibarət idi. Müsəlmanlar ərəb İspaniyasını Əndəlus adlandırırdılar.

❖ Klassik feodalizmə keçid dövründə (Qərbi Avropada klassik feodalizm dövrü XI-XV əsrləri əhatə edir) müsəlman İspaniyası Avropanın çiçəklənən ölkəsi idi.

❖ Müsəlman xilafətinin zəifləməsindən istifadə edən xristian kilsəsi Pireneyin bütün xristian əhalisini müsəlmanlara qarşı birləşdirdi.

❖ Fransız və italyan cəngavərlərinin köməyi ilə ərəbləri Pireneydən qovmaq hərəkatı (REKONKİSTA) başlandı.

❖ Pireneyin ərəblərdən geri alınması uğrunda mübarizə rekonkista adlanır. Rekonkistanın gedişində feodallar yeni torpaqlar ələ keçirdilər, müharibələrdə iştirak edən kəndlilər torpaqla yanaşı, şəxsi azadlıq əldə etdilər, mavrların əlindən alınmış şəhərlər isə özünüidarə hüququ qazandı. Rekonkista nəticəsində yeni dövlətlər yarandı.

❖ 1030-cu ildə Kordova xilafəti parçalandı. Onun zəifləyərək parçalanmasının səbəblərindən biri də yəhudilərin xəlifə sarayında mühüm vəzifələr tutması idi.

❖ 1085-ci ildə səlibçilər Pireneyin şimalındakı Toledo şəhərini tutaraq onu **Kastiliya krallığının** paytaxtına çevirdilər.

❖ Az sonra paytaxtı Saraqossa olan, Araqon,

❖ XIII əsrdə isə paytaxtı Lissabon olan **Portuqaliya krallığı** yarandı.

❖ 1212-ci ildə buradakı xristian dövlətləri və səlibçilərin birləşmiş qüvvələri Las-Navas-de-Tolosa kəndi yaxınlığında ərəbləri məğlub etdikdən sonra ərəblərin Əndəlusdakı qüvvələri sarsıldı.

❖ XIV əsrdə Pireney yarımadasındakı müsəlmanların əlində yalnız İspaniyanın ən varlı vilayəti - Qranada əmirliyi qalmışdı.

## İspaniya krallığı

❖ Pireneydə yaranan xristian dövlətləri **nümayəndəli (silki) monarxiya** idi.
❖ Ali qanunverici orqan **üçpalatalı korteslər** idi. Korteslər yeni vergiləri təsdiq edir, qanunların qəbulunda iştirak edirdilər.
❖ 1479-cu ildə Kastiliya və Araqon krallıqlarının birləşməsi nəticəsində **vahid İspaniya dövləti** yarandı.
❖ Navarra isə İspaniya ilə Fransa arasında bölündü.
❖ Mərkəzləşmiş İspaniya 1492-ci ildə Pireneydəki son ərəb əmirliyini - Qranadanı da tutdu.
❖Rekonkista prosesində müsəlman və yəhudilər Əndəlusdan köçüb getdilər.
❖ Bu isə ticarət və sənətkarlığa ağır zərbə vurdu.
❖ İspaniya katolik ölkəsinə çevrildi.
❖ İnkvizisiya məhkəməsi yaradıldı.
❖ İspaniyada bidətçilərin tonqalda yandırılması **autodafe** (etiqad işi) adlanırdı.

# İTALİYA

❖ Klassik feodalizm dövründə (XI-XV əsrlər) Fransa və İngiltərədən fərqli olaraq İtaliya və Almaniya parçalanmış halda qaldı.

❖ İtaliyanın başlıca xüsusiyyəti burada şəhərlərin erkən yaranması idi.

❖ X-XI əsrlərdə Şimali İtaliyada müstəqil krallıq olmadığından şəhərlərin senyorlara qarşı mübarizəsində kral hakimiyyəti kimi müttəfiqi yox idi.

❖ İtaliya şəhərləri senyorları olan yepiskoplara qarşı mübarizədə kommuna (özünüidarə) hüququ aldılar.

❖ Kommunalar:

1. qanunlar qəbul edir,
2. bütün məsələləri müstəqil həll edirdilər.

❖ Azad kommunalar tədricən ətraf əraziləri də tutaraq müstəqil şəhər-dövlətlərə və ya şəhər-respublikalara çevrilirdilər.

❖ Klassik feodalizm dövründə İtallyanın ən varlı şəhəri Florensiya idi.
❖ XIV əsrdə burada ilk manufakturalar yaranmışdı.
❖ Muzdlu fəhlələr çompi adlanırdılar.
❖ Florensiyada ancaq sex üzvləri tamhüquqlu vətəndaş idilər.
❖ XV əsrdə şəhərlərdə bir neçə varlı ailə hakimiyyəti ələ keçirdi və onu irsən ötürməyə başladı.
❖ Belə idarə üsulu tiranlıq adlanırdı.
❖ Florensiyada ən varlı Mediçi ailəsinin tiranlığı Böyük Lorenso dövründə daha da gücləndi.
❖ XV əsrin ortalarında Venesiya respublikası Avropanın ən qüdrətli dəniz dövlətlərindən biri idi.
❖ Hələ XII əsrdən Venesiyada veksel və çek sistemi tətbiq olunurdu.
❖ 1156-cı ildə Avropada **ilk bank** da burada yaradılmışdı.

## TEXNİKİ İXTİRALAR

❖XV-XVI əsrlərdə texnikanın inkişafındakı nailiyyətlərin əsasında su mühərriklərindən istifadə dururdu.

❖ Aşağıdan fırlanan çarxla yanaşı, yuxarıdan fırlanan çarxdan istifadə nəticəsində su mühərrikləri təkmilləşdirildi və onlardan metal emalında, kağız istehsalında və mədənlərdə istifadə edilməyə başlandı.

❖ Digər yenilik XIV əsrdən başlayaraq domna (metal əridən iri sobalar) sobalarının tikilməsi idi. Onların tikilməsi ilə əlaqədar daş kömürə tələbat da artdı.

❖ XVI əsrdə toplar, tapançalar və ağır tüfənglər (muşketlər) hazırlanırdı. Odlu silahın istehsalı hərbi işdə çevriliş etdi.

❖ Bu çevrilişin nəticəsində feodal-cəngavər süvarisi öz yerini odlu silahla silahlanmış **muzdlu orduya** verdi.

❖ XV əsrdə kompas və yelkənli yüngül gəmilərdən (karavellalardan) istifadə nəticəsində dənizçilik və gəmiqayırmanın inkişafı uzaq dəniz səyahətlərinə çıxmağa imkan yaratdı.

❖ Sənətkarlığın və ticarətin inkişafı savadlı adamlara, o cümlədən məktəb və universitetlərin açılması kitaba tələbatı artırdı.

❖ 1445-ci ildə alman alimi **Quttenberq** çap üsulu ilə ilk kitabını buraxdı.

## Amerika xalqları böyük coğrafi kəşflər ərəfəsində

❖ X əsrdə Amerika xalqlarının çoxu ibtidai icma quruluşunda yaşayır, kotanın, odlu silahın, təkər və dəmirin nə olduğunu bilmirdi.

❖ İnkişaf səviyyəsi daha yüksək olan mayyalılar qədimdən əkinçiliklə məşğul olurdular və onların şəhər-dövlətləri var idi.

✓ Torpaq icmaya məxsus idi.

✓ İcma üzvləri öz əkin sahələri ilə yanaşı, əyan və kahinlərin də torpaqlarını becərirdilər.

❖ Meksikada yaşayan asteklərin dövləti var idi.

✓ Hökmdar hakimiyyəti irsən ötürülürdü.

✓ Müharibə vaxtı asteklər 150 minlik qoşun çıxara bilirdilər.

✓ Tabe edilmiş qonşu tayfalar asteklərə bac ödəyir, qul və döyüşçü verirdilər.

✓ Paytaxt şəhəri Mexiko çox inkişaf etmişdi.

❖ XII əsrdə **Peruda paytaxtı Kusko şəhəri olan İnk dövləti** yaranmışdı.
✓ Dövlətdə hər şey müharibənin tələblərinə tabe edilmişdi.
✓ Kişilər onluq, yüzlük və minlik adlanan hərbi dəstələrə bölünürdülər.
✓ Orduda çox sərt intizam var idi.
✓ Yeriş zamanı sıradan özbaşına çıxmaq üstündə döyüşçüyə ölüm cəzası verilirdi.
✓ Əkilən sahələr üç yerə bölünürdü: bir sahənin məhsulu kahlnlərə, digərinin məhsulu hökmdara, üçüncü sahənin məhsulu isə icma üzvlərinə verilirdi.
✓ Quraqlıq və kasadlıq illərində yetimlərə, kimsəsizlərə, şikəstlərə və qocalara yardım göstərilirdi.
✓ Nikaha girmək məcburi idi. Dövlət nəzarətçiləri bütün ölkəni gəzirdilər ki, məmurlar əhali ilə yaxşı rəftar etsinlər.
✓ Kimsə aclıqdan ölərdisə, həmin əraziyə baxan məmur edam olunurdu.
✓ Peru dağlıq ölkə olduğundan yollar asma körpülərdən və tunellərdən keçirdi.
✓ Poçt rabitəsi yaradılmışdı.

## BÖYÜK COĞRAFİ KƏŞFLƏR

❖ XV-XVI əsrlərdə həyata keçirilən böyük coğrafi kəşflərin bir sıra səbəbləri var idi.

✓ Bu, hər şeydən əvvəl, Avropada əmtəə istehsalı, ticarətin inkişafı və avropalıların Asiya ölkələri ilə (Şərqlə) birbaşa əlaqələr yaratmaq üçün yeni yollar axtarması ilə bağlı idi.

✓ Konstantinopol tutulduqdan sonra Kiçik Asiyadan və Suriyadan keçən ticarət yolları osmanlıların əlinə keçmişdi.

✓ Pul kəsmək üçün lazım olan qiymətli metallar (qızıl və gümüş) Avropada az idi.

✓ Avropalılar qızıl axtarmaq üçün uzaq səfərlərə çıxırdılar.

✓ Onları daha çox Hindistan cəlb edirdi.

❖ 1488-ci ildə **Bartolomey Diaşın** başçılıq etdiyi Portuqaliya ekspedisiyası Afrikanın cənubunda Ümid burnunu kəşf etdi.

❖ 1492-ci ildə **Xristofor Kolumbun** başçılıq etdiyi İspaniya ekspedisiyası Hindistana dəniz yolunu kəşf etməyə cəhd göstərdi.

✓ Bu zaman Kuba və Haiti kəşf olundu.

✓ Kolumb kəşf etdiyi torpaqları səhvən "Hindistan", əhalisini isə "hindular" adlandırdı.

✓ Əslində isə o, Amerikanı kəşf etmişdi. Kolumbun müəllimi Toskanelli vaxtilə bu materik haqqında fikir söyləmiş Nəsirəddin Tusinin əsərləri ilə tanış idi.

❖ 1497-1498-ci illərdə portuqaliyalı **Vasko da Qama** Hındıstana dənız yolunu kəşf etdi. Bu zaman onun bələdçisi Əhməd ibn Məcid adlı ərəb idi.

❖ 1499-1504-cü illərdə İtaliya səyyahı **Ameriqo Vespuççi** Kolumbun kəşf etdiyi torpaqların yeni qitə (AMERİKA) olduğunu sübut etdi.

❖ 1519-1522-ci illərdə ispan **Fernando Magellan** ilk dünya səyahəti etdi.

✓ Magellan boğazı kəşf edildi.

✓ O, Böyük okeanı Sakit okean adlandırdı.

✓ Bu səyahət Yerin kürə şəklində olduğunu sübut etdi.

## Portuqaliyanın Asiyada mülkləri

- ❖ Portuqaliyalılar Hindistanın, Ərəbistanın və Şərqi Afrikanın yalnız Hind okeanı sahillərindəki mühüm şəhərlərini tutdular. Onlar həmin şəhərlərin əhalisini qıraraq qalalar tikirdilər.
- ❖ Silah və hərbi donanma cəhətdən üstün olan portuqaliyalılar ərəbləri Hind okeanından sıxışdırıb çıxartdılar.
- ❖ Hindistana gedən dəniz yolu onların əlinə keçdi.
- ❖ Zond və Molukk adalarını tutub, Çin və Yaponiya sahillərinə çıxdılar.
- ❖ Böyük coğrafi kəşflərdən sonra **ilk müstəmləkə işğalları** başlandı.
- ❖ Portuqaliya ilk müstəmləkəçi dövlət oldu.
- ❖ Müstəqilliyini itirmiş və işğalçıların zülmü altına düşmüş ərazilər müstəmləkələr adlanmağa başladı.
- ❖ Onlar Afrikanın qərb sahillərini də tutub, oraya Qızıl sahil, Fil dişi sahili, Kölə sahili kimi adlar verdilər.
- ❖ Portuqaliyanın Amerikadakı müstəmləkəsi Braziliya idi.

## İspaniya mülkləri

❖ İspaniya və Portuqaliyanın kəşf etdikləri torpaqlara hamıdan əvvəl əsgər, tacir və keşişlər gəlirdi.

❖ Əslində, onların, hamısını bu torpaqlara qızıla hərislik gətirib çıxarmışdı.

❖ 1519-cu ildə ispan E.Kortesin başçılıq etdiyi dəstə Meksikaya soxuldu.

❖ Kortes hiylə ilə astek hökmdarını tutub, dövləti onun adından idarə etməyə başladı.

❖ Perunu isə F.Pisarronun dəstəsi tutdu.

❖ İnk hökmdarını xəyanət yolu ilə ələ keçirən ispanlar onu azad etmək üçün bir otaq dolu qızıl alsalar da, vədlərinə əməl etməyib hökmdarı öldürdülər.

❖ İspanlar işğal etdikləri Amerika torpaqlarında hinduların torpaqlarını əllərindən alıb, onları ya öldürür, ya da qula çevirirdilər.

❖ Keşişlər də hinduları öz qədim dinlərindən zorla döndərir, onları xristian edirdilər.

❖ Bu dini qəbul etməyənlər isə edam olunurdu.

❖ Beləliklə, XVI əsrin ortalarında ispanlar Kubada və Karib dənizinin digər adalarında yerli əhalini məhv etdilər.

❖ Amerikada hinduların məhv edilməsi Afrikadan qul gətirilməsi ilə nəticələndi.

❖ Qul alveri ilə əvvəl portuqaliyalılar, sonra isə ispanlar, hollandlar və ingilislər məşğul olurdular.

❖ Böyük coğrafi kəşflər nəticəsində dünya ticarəti yarandı, ticarət yolları Aralıq dənizindən okeanlara keçdi.

❖ Venesiya və Genuya bu yollardan kənarda qaldı.

❖ Ticarət Niderland, Portuqaliya və İngiltərənin limanlarında cəmləndi.

❖ Niderlandın Antverpen şəhəri dünya ticarətinin mərkəzi oldu.

## REFORMASİYA

**Almaniyada reformasiyanın başlanması.**

- XVI əsrdə Almaniyada **feodal dağınıqlığı** hökm sürürdü.
- Kənddə feodal qaydaları olan təhkimçilik və biyar qalmaqda idi.
- Şəhərdə sex nizamnamələri emalatxanaların genişlənməsinə icazə verməditindən manufakturalar daha çox kənd yerlərində yaranırdı.
- Odlu silahın tətbiqi nəticəsində daha orduya lazım olmayan cəngavərlər quldurluq və soyğunçuluqla məşğul olurdular.
- Ölkə dağınıq olduğundan katolik kilsəsi daha qüdrətli idi.
- Feodal qaydaları və katolik zülmü ölkənin ümumi inkişafına mane olurdu.
- XVI əsrdə Almaniyada əhalinin bütün təbəqələri katolik kilsəsindən narazı idi.
- İri torpaq mülklərinə yiyələnmiş kilsə həm də əhalidən ondabir vergisi alır, vəzifə və indulgensiyalar satırdı.
- Roma papasının Almaniyada "cənnət qəbzi" alverini geniş-ləndirməsi katolik kilsəsinə qarşı açıq mübarizəyə təkan oldu.

❖ Vittenberq Universitetinin professoru **Martin Lüter** 1517-ci ildə "cənnət qəbzi" alverini pislədi.

❖ Papanın tərəfini saxlayan imperator Lüteri Vorms şəhərində keçirilən qurultaya çağırıb həbs etmək istəyəndə alman knyazlarından biri onu öz qəsrində gizlətdi.

❖ Lüterin çıxışı reformasiyanın - yəni kilsənin yenidən qurulması uğrunda mübarizənin başlanğıcı oldu.

❖ Bu zaman:

1. **şəhərlilər** kilsə vergilərinin azaldılmasına və monastrların bağlanmasına,
2. cəngavərlər kilsə torpaqlarının ələ keçirilməsinə,
3. **knyazlar** kilsənin papaya deyil, onlara tabe olmasına,
4. **yoxsullar** isə həm katolik kilsəsinin, həm də feodal qaydalarının ləğvinə çalışırdılar.

❖ Kəndlilərin mübarizəsi feodalizmə qarşı çevrilmiş əsl "xalq reformasiyası" idi və ona Tomas Münser başçılıq edirdi.

❖ 1524-cü ildə Almaniyanın cənubunda başlayan üsyan 1525-ci ildə hər yeri bürüdü.

❖ Mərkəzi Almaniyanın Türingiya vilayətində üsyana başçılıq edən **Tomas Münser** feodal qaydalarını silahlı mübarizə yolu ilə devirməyə çağırırdı.

❖ Şəhər yoxsulları kəndliləri müdafiə edir, onlara köməklik göstərirdilər.

❖ Varlı şəhərlilər isə rəhbərləri ilə birlikdə feodalların tərəfinə keçdilər. Kəndlilər bir ordu halında birləşə bilmədilər.

❖ Türingiyada üsyançılara qarşı göndərilən muzdlu qoşun 5 minə yaxın adamı qırdı, Münser də öldürüldü.

❖ Digər vilayətlərdə də üsyan yatırıldı.

❖ Kəndli müharibəsi məğlub olandan sonra ölkədə feodal qaydaları daha da gücləndi.

❖ Bu vaxta qədər azad olan kəndlilər də təhkimli halına salındılar.

❖ Almaniyada dağınıqlıq və feodal zülmü daha da gücləndi.

## Reformasiyanın yayılması. Protestant kilsəsi

❖ Alman imperatoru V Karl reformasiyanın qarşısını almaq istəsə də, 1524-cü ildə beş alman knyazı və 14 şəhər buna etiraz (protest) edərək Lüteri müdafiə etdilər.

❖ Reformasiyaya tərəfdar olanları protestant, yeni kilsəni isə protestant kilsəsi adlandırdılar.

❖ 1555-ci ildə protestant knyazlarla katolik knyazlar arasında "Auqsburq razılaşması" imzalandı.

❖ Bu sazişə görə:

1) protestantların etiqad azadlığı tanındı.
2) Hər bir knyaz kilsə başçısı oldu.
3) Təntənəli kilsə mərasimləri qadağan edildi.
4) Əhali knyazın qəbul etdiyi etiqadı (məzhəbi) qəbul etməli idi.
5) Kim bu etiqadı qəbul etmək istəməsə, başqa yerə köçə bilərdi.

Alman protestantlarının kilsəsi "Lüteran kilsəsi" adlandı.

❖ İngiltərə, Danimarka və İsveçdə kilsə islahatını krallar həyata keçirdilər və özləri kilsə başçısı oldular.

## Kalvin kilsəsi

❖ İsveçrədə kilsə islahatını **Jan Kalvin** həyata keçirdiyi üçün kilsə "Kalvin kilsəsi" adlanırdı.

❖ Kalvin :

1. var-dövlətin əleyhinə çıxmır,
2. lakin təmtəraqlı həyat tərzini qadağan edirdi.

❖ Kalvin kilsəsi ayrı-ayrı müstəqil icmalardan ibarət idi.

❖ Bu icmaların başçıları şəhərlilər içərisindən seçilirdi.

❖ Kalvinistlər də katoliklər kimi əleyhdarlarını təqib edir, tonqalda yandırırdılar.

❖ Kalvinin tərəfdarları İsveçrə, Fransa və Niderlandda daha çox idi.

❖ Protestant kilsəsinin yaranması ilə katolik kilsəsi iki yerə bölündü və öz əmlakının xeyli hissəsini itirdi, Roma papasının nüfuzu zəiflədi.

❖ Katolik kilsəsi əvvəlki qüdrətini qaytarmaq üçün reformasiya üzərinə hücuma keçdi. Bu məqsədlə:

1. Roma papası 1540-cı ildə "İsa cəmiyyəti" və ya yezuitlər ordeni yaratdı. Məqsəd "yolunu azmış adamları" kilsənin himayəsi altına qaytar- maqdan ibarət idi.

2. 1542-ci ildə Papa inkvizisiyası yaradıldı. Bu kilsə məhkəməsi katolik etiqadından üz döndərən şəxslərə amansız cəza verir, onları tonqalda yandırırdı.

❖ Katoliklər üçün qadağan edilən kitablar tonqalda yandırıldı.

Protestantların çox olduğu vilayətlərə yürüşlər təşkil edilir və onları kütləvi şəkildə qırırdılar.

❖ 1572-ci ilin avqustunda müqəddəs Varfolomey günü ərəfəsində Parisdə sonralar «düşmənə amansız divan tutmaq» mənasında işlənən "Varfolomey gecəsi" təşkil edildi.

❖ İki həftə ərzində 30 mindən çox adam öldürüldü. Bütün bu tədbirlərə baxmayaraq katolik kilsəsi reformasiyanın yayılmasının qarşısını ala bilmədi.

❖ Katolik kilsəsi yalnız Polşa, İtaliya və Cənubi Almaniyada reformasiyanın qarşısını ala bildi.

❖ Bu ölkələrdə feodal qaydaları uzun müddət davam etdi.

# NİDERLAND

- ❖ Niderland İspaniyanın hakimiyyəti dövründə.
- ❖ Niderlandda kapitalist istehsalı sürətlə inkişaf edirdi.
- ❖ Köhnə sex qaydaları zəifləyir, manufakturalar açılırdı.
- ❖ Böyük coğrafi kəşflərdən sonra Antverpen dünya ticarətinin mərkəzinə çevrilmişdi.
- ❖ Kənd təsərrüfatında da kapitalist istehsalı yaranır və inkişaf edirdi. Kəndlilər şəxsən azad olsalar da, torpağa görə feodallardan asılı vəziyyətdə idilər.
- ❖ XVI əsrin ortalarında bu ölkə İspaniyanın hakimiyyəti altına düşdü.
- ❖ Niderlandı ispan kralının canişini və onun yanında yaradılan **"Gizli şura"** idarə edirdi.
- ❖ İspaniya kralı Niderland əhalisi üzərinə ağır vergi qoymuşdu.
- ❖ Niderland tacirlərinə İspaniyanın Amerikadakı müstəmləkələri ilə ticarət qadağan edilmişdi.
- ❖ İspaniyanın İngiltərə ilə düşmənçiliyi nəticəsində bu ölkədən mahud gətirilməsinin dayandırılması, İspaniyadan gətirilən yun üçün yüksək gömrük haqqının qoyulması Niderland manufakturalarına zərbə vururdu.

❖ İspan zülmü kapitalizmin inkişafına mane olurdu.

❖ İspaniya Niderlandda kalvinizmin (protestantlığın) yayılmasının qarşısını almağa, katolik kilsəsinin mövqeyini gücləndirməyə çalışırdı.

İspan ağalığına qarşı azadlıq mübarizəsinin başlanması.

❖ **II Filippin** (1556-1598) hakimiyyəti dövründə ispan zülmünün daha da kəskinləşməsi, katolik zülmünün güclənməsi 1566-cı ildə Niderlandda azadlıq mübarizəsinin başlanmasına səbəb oldu.

❖ Bu mübarizənin məqsədi ispan ağalığını və katolik zülmünü aradan qaldırmaqdan ibarət idi.

❖ Azadlıq hərəkatını yatırmaq üçün ispan kralı hersoq Albanı seçmə qoşunla Niderlanda göndərdi.

❖ Hersoq Alba burada xalqın "Qanlı Şura" adlandırdığı "qiyam işlərinə baxan şura" yaratdı, cəza tədbirləri gördü.

❖ Amansız tədbirlər görməkdə onun iki məqsədi vardı:

1. əhalini qorxutmaqla katolik və ispan zülmünə qarşı çıxışları yatır maq;
2. ispan xəzinəsini doldurmaq üçün Niderland zadəganlarını və burjuaziyasını soyub-talamaq.

- İspanlar onlara qarşı vuruşan Niderland partizanlarını kinayə ilə meşə və dəniz gözləri (dilənçiləri) adlandırırdılar.
- 1572-ci ildə dəniz gözləri Brill limanını tutdular və şimalda üsyanın dayağına çevrildilər.
- Üsyana başçılıq edən burjuaziya Oranii Vilhelmi şimal əyalətlərinin hakimi elan etdi.
- Albanın uğursuzluğunu görən II Flipp onu Niderlanddan geri çağırdı.
- Alba getdikdən sonra dəniz gözləri *"torpağı itirməkdənsə, suda batırmaq yaxşıdır"* prinsipini əsas tutub, Leyden şəhərini sudan qoruyan bəndləri dağıtdılar.
- Leyden şəhərindən geri çəkilən ispan əsgərləri 1576-cı ildə Antverpen şəhərini tutaraq dağıtdılar. Bundan sonra şəhər tənəzzülə uğradı.
- 1579-cu ildə Niderlandın cənub əyalətləri II Flippin hakimiyyətini tanıdı.
- Həmin ildə Utrext şəhərində Niderlandın yeddi şimal əyaləti vahid dövlət kimi birləşərək müstəqilliyini elan etdi.
- Bu yeni dövlət **Hollandiya respublikası** adlandı.

- Burjuaziya Oranlı Vilhelmi dövlətin başçısı seçmək istəyirdi. Ancaq ispanların muzdlu qatili onu qətlə yetirdi.
- Bundan sonra dövləti Oranlı Vilhelmin oğlunun başçılıq etdiyi burjuaziya və əyanlardan ibarət "**Milii şura**" idarə etməyə başladı.
- Hollandiya daha 30 il İspaniyaya qarşı mübarizə apardı. Nəhayət, 1609-cu ildə İspaniya Hollandiyanın müstəqilliyini tanıdı.
- Hollandiyada ispan zülmünə və feodalizmə zərbə vuruldu.
- Kapitalizmin inkişafına şərait yarandı.
- Antverpenin süqutundan sonra Amsterdam dünya ticarətinin mərkəzinə çevrildi.
- Hollandiya tacirləri Çin və Yaponiya ilə ticarət əlaqələri qurdular.
- Çindən ilk dəfə olaraq Avropaya çay gətirildi.
- Sürətlə inkişaf edən Hollandiya İndoneziyanı Portuqaliyanın əlindən aldı, Şimali Amerikada və Afrikanın cənubunda məskənlər ələ keçirildi.
- İspan ağalığına qarşı azadlıq hərəkatının qələbəsi nəticəsində dünyada ilk burjua respublikası yarandı.

## RUSİYA VƏ BALTİKYANI XALQLAR

**Rusiyada feodal dağınıqlığı.**

- XI—XII əsrlərdə natural təsərrüfatın hökm sürdüyü şəraitdə Kiyev dövlətində feodal aristokratiyası və ayrı-ayrı knyazlar güclənirdi.
- 1097-ci ildə **Lübeç qurultayında** Kiyev dövlətinin knyazlıqlara parçalanması rəsmiləşdirildi.
- Böyük Kiyev torpağında müstəqil feodal knyazlıqları və respublikaları, onların tərkibində isə **udel** knyazlıqları meydana gəldi.
- Bu zaman "Üç dəniz limanı" adlanan Novqorod feodal respublikası idi.
- Burada "**Veçe**" adlanan xalq yığıncağı ali qanunverici və məhkəmə rolunu oynayırdı.
- Şəhər hakimi olan posadnik, minbaşı, "Ağsaqqallar şurası" və knyaz veçedə seçilirdi.
- Posadnik icra hakimiyyətini həyata keçirir, əhalini mühakimə edir, diplomatik danışıqlar aparırdı.
- Minbaşı vergi sisteminə və müdafiə işlərinə rəhbərlik edirdi. Knyaz drujina başçısı kimi şəhəri düşmən hücumlarından müdafiə edirdi. Onun dövlət işlərinə cüzi də olsa qarışması vəzifədən qovulması ilə nəticələnirdi.

❖ Feodallıqlara parçalanma ölkənin xarici hücumlardan müdafiəsini çətinləşdirirdi.
❖ 1237-1240-cı illərdə monqollar rus knyazlıqlarını işğal etdilər və rus torpaqları monqollardan vassal asılılığına düşdülər.

**Rus torpaqlarının birləşdirilməsinin başlanması.**

❖ XIV əsrin əvvəllərində Moskva knyazı **İvan Kalita** (pul kisəsi) Qızıl Ordu xanından "Böyük knyaz" adını almaq uğrunda mübarizədə rəqibi Tver knyazına qalib gəlib "yarlıq" aldı.
❖ O, böyük knyaz titulunu ələ keçirəndən şonra bir müddət monqolların yürüşünə fasilə verildi.
❖ Moksva knyazlığı əlverişli coğrafi mövqeyindən də istifadə edərək gücləndi və daha Qızıl Ordu ilə hesablaşmadı.
❖ 1380-ci il Kulikovo döyüşündən sonra isə Moskva Qızıl Orduya xərac verməkdən tamamilə imtina etdi.
❖ **III İvanın** knyazlığı dövründə (1462-1505) Rostov və Yaroslavl knyazlıqları ələ keçirildi və 1471-ci il Şelon döyüşündən sonra Novqorod asılı vəziyyətə salındı.
❖ 1478-ci ildə müstəqilliyinə tamamilə son qoyulan Novqorod Moskva knyazlığına birləşdirildi.

❖ 1480-ci il **Uqra qarşılaşmasından** sonra isə mərkəzləşdirilmiş Rus dövləti yaranmağa başladı.

❖ Dövləti böyük knyaz və onun yanında toplaşan Boyar duması idarə edirdi.

❖ 1497-ci ildə təhkimçilik hüququnun rəsmiləşdirilməsinin əsasını qoyan fərman verildi.

❖ Fərmana görə, kəndli ildə bir dəfə "Yuri gününə" (noyabrın 26-na) bir həftə qalmış və bir həftə sonra ağanın torpağını tərk edə bilərdi.

## Baltikyanı xalqlar

❖ XII-XIII əsrlərin əvvəllərində Baltik dənizinin cənub-şərqində müasir estonların, litvalıların və latışların əcdadları yaşayırdı.

❖ XIII əsrin ortalarında litvalıların əcdadları olan livlər - Litva knyazlığını yaratdılar.

❖ XII əsrdə alman cəngavərləri Baltik xalqlarının sərvətlərini ələ keçirmək və Roma papasının əmri ilə əhalini xristianlaşdırmaq üçün Baltik dənizinin şimal-şərq istiqamətində hücuma başladılar.

❖ 1184-cü ildə Roma papasının xristian dinini yaymaq üçün göndərdiyi Meynard livlər tərəfindən Litvadan qovuldu.

- 1198-ci ildə səlibçiləri yenidən livlərin üzərinə göndərən Roma papası Baltikyanı xalqlar arasında xristianlığı yayanların bütün günahlarının bağışlanacağını elan etdi.
- Şəlibçi almanlar 1201-ci ildə Riqa qalasının əsasını qoyub **Livoniya ordeni** yaratdılar.
- Digər tərəfdən İsveç və Danimarka feodalları da hücuma keçdilər. Estonların torpağını tutan Danimarka qoşunları 1219-cu ildə Revel qalasının əsasını qoydular.
- 1223-cü ildə estonların alman və danimarkalılara qarşı üsyanı amansızlıqla yatırıldı.
- Bu zaman novqorodlular da üsyançılara köməyə gəlmişdi.
- 1237-ci ildə alman cəngavərlərinin Tevton ordeni ilə Livoniya ordeni birləşdi.
- Digər tərəfdən İsveç də fəallaşdı və böyük ordu ilə Novqorod torpaqlarına hücum etdi.
- 1240-cı ildə **Neva çayı sahilində** döyüşdə Novqorod knyazı **Aleksandr Yaroslaviç** İsveç ordusunu məğlubiyyətə uğratdı. Aleksandra "Nevski" ləqəbi verildi.

❖ 1242-ci ildə Aleksandr Nevski Çud gölünün buzları üzərində ("Buz döyüşü"ndə) almanları məğlub etdi.

❖ Almanlar bu döyüşdən sonra bir daha Novqoroda hücum etməyəcəklərinə təminat verən saziş imzaladılar.

❖ Nəticədə Pskov və Novqorod torpaqları öz müstəqilliklərini qoruyub saxladılar.

❖ XIV əsrdə Rus torpaqlarındakı dağınıqlıqdan istifadə edən Litva knyazlığı Smolensk ilə birlikdə Ukrayna və Belorus torpaqlarının bir hissəsini özünə birləşdirdi.

❖ 1380-ci il Kulikovo döyüşündən sonra rus və almanlara qarşı mübarizə Litva və Polşanı yaxınlaşdırdı.

❖ 1385-ci ildə Litva və Polşa arasında uniya (birlik) bağlandı, lakin Polşanın Litvada katolik dinini yayması 1392-ci ildə bu uniyanı pozdu.

❖ Bununla belə, Tevton ordeni tərəfindən yaranmış təhlükə Litva ilə Polşanı yenidən yaxınlaşdırdı.

❖ Onların qoşununun tərkibində polyaklar, çexlər, ukraynalılar, beloruslar və Smolenskdən gəlmiş ruslar var idi.

❖ Litvalıların və slavyanların birləşmiş qoşunu 1410-cu ildə Şərqi Prussiyada **Qrünvald vuruşmasında** almanları məğlub etdi.

❖ Bu vuruşma alman cəngavərlərinin Şərqə yürüşünün qarşısını aldı.

**Vahid Rusiya dövlətinin yaranması**

- Moskva knyazı III Vasilinin dövründə Pskov (1510), Smolensk (1514) və Ryazan (1521) torpaqları Moskvaya birləşdirildi.
- Moskva knyazı **IV İvan** 1547-ci ildə "çar" titulunu qəbul etdi.
- Çarın yanında onun yaxın köməkçilərindən ibarət **Seçmə Rada** təşkil olundu.
- 1549-cu ilin fevralında çar feodalların müxtəlif təbəqələrinin ilk Zemstvo yığıncağını topladı və burada boyarları tənqid etdi.
- 1550-ci ildə qəbul edilmiş "Qanunnamə"yə görə, kəndlilər ildə bir dəfə, özü də işçi qüvvəsini itirdiyinə görə, feodala dəymiş "ziyanı" ödədikdən sonra çıxıb gedə bilərdilər.
- 50-ci illərin ortalarında yerlərdə boyar-canişin sistemi ləğv edildi.
- Çar IV İvan 1565-1572-ci illərdə mərkəzi hakimiyyət əleyhinə olan boyar müxalifətini ləğv etmək üçün zorakı vasitələrlə opriçnina (kəsib götürmək mənasında işlənir) siyasətini həyata keçirdi.

❖ IV İvanın oğlu Fyodorun ölümündən sonra, 1598-ci ildə Zemstvo yığıncağında ilk dəfə seçki yolu ilə Boris Qodunov çar seçildi.
❖ Lakin onun vəfatından sonra ölkədə hakimiyyət uğrunda mübarizə qızışdı və hakimiyyət yeddi boyardan ibarət qrupun əlinə keçdi.
❖ 1613-cu ildə Zemstvo yığıncağı **Mixail Romanovu** çar seçdi.
❖ Rusiyada Romanovlar sülaləsinin hakimiyyəti (1613-1917) quruldu.
❖ 1649-cu ildə "Məclis qanunnaməsi" qəbul edildi. Bu sənəddə:
✓ Zadəgan malikanələrinin votçinalar kimi irsən keçməsinə icazə verilirdi. Təhkimçilik irsi vəziyyət alırdı.

**Rusiyanın xarici siyasəti**

❖ Rusiyanın işğalçılıq siyasətində Volqaboyu ərazilər mühüm yer tuturdu.
❖ Qazan xanı Yadigardan təslim olmaq tələbinə rədd cavabı alan ruslar 1552-ci ildə 150 topa malik 150 minlik ordu ilə Qazan xanlığını tutdular.
❖ Yadigar xana zorla xristian dini qəbul etdirildi.
❖ Qazanın işğalı ruslar üçün Urala, Sibirə, Mərkəzi Asiyaya və Qafqaza yol açdı.
❖ 1554-cü ildə Moskvanın köməyi ilə hakimiyyətə gətirilən Dərviş Əli xanın müstəqil siyasət yeritdiyini görən Moskva 1556-cı ildə Həştərxan xanlığını da işğal etdi.
❖ 1557-ci ildə Başqırdıstan işğal olundu.

## Livoniya müharibəsi (1558-1583)

❖ Rusiyanın Baltik sahillərinə yiyələnmək cəhdləri bölgədə əsas maneə olan Livoniya ordeni ilə müharibəyə gətirib çıxartdı.
❖ 1560-cı ildə Livoniya ordeni məhv edildikdən sonra onun torpaqlarını bölüşdürmək uğrunda Litva, Polşa, İsveç və Rusiya arasında müharibə başladı.
❖ 1564-cü ildə Litva Polotsk yaxınlığında Rusiyanı məğlub etdi.
❖ 1582-ci ildə Reç Pospolita, 1583-cü ildə isə İsveçlə barışığa əsasən Rusiya bir sıra ərazilərini itirdi. Rusiya Baltik sahillərindəki əraziləri tutmaq məqsədinə nail ola bilmədi.

## Sibir xanlığınm işğalı

❖ 1563-cü ildə Sibir xanlığında hakimiyyətə gələn **Kuçum xan** 1571-ci ildə Rusiyaya xərac ödəməkdən imtina etdi.
❖ Çar Sibirin işğalını Stroqanovlar ailəsinə tapşırdı. Stroqanovların vəsaiti ilə Yermak 1581-ci ildə Sibirə yürüş təşkil edib, 1582-ci ildə Kaşlıkı ələ keçirdi.
❖ Ruslar tutduqları ərazidə Tümen, Tobolsk, Tara şəhərlərini saldılar.
❖ 1598-ci ildə Ob çayı sahilində son döyüşdə Kuçum xan məğlub edildi və Qərbi Sibirin işğalı başa çatdırıldı.

# REÇ POSPOLİTA

❖ 1569-cu ildə Lublin şəhərində Polşa və Litva uniya (LÜBLİN UNİYASI) bağlayaraq **Reç Pospolita** dövlətində birləşdilər.

❖ Reç Pospolitanı seymdə seçilmiş kral idarə edirdi.

❖ 1575-ci ildə Rusiyanın əleyhdarı Stefan Batori türklərin himayəsi ilə kral seçildi.

❖ Livoniya müharibəsi Rusiyanın məğlubiyyəti ilə başa çatdı.

❖ Lakin Rusiyanın təhlükə törədə biləcəyini nəzərə alan Reç Pospolita feodalları yalançı çarlardan (I Dmitri, II Dmitri) istifadə edərək Rusiyada hakimiyyəti ələ keçirməyə çalışırdılar.

❖ Bu cəhdlər boşa çıxdıqdan sonra 1609-cu ildə Rus çarlığı ərazisinə ordu yeridən Reç Pospolita kralı III Sigizmundun Moskvanı tutmaq təşəbbüsü iflasa uğradı.

❖ 1618-ci ildə Rusiya ilə Reç Pospolita arasında **Deulino barışığı** bağlandı.

✓ Smolensk və Çerniqov-Seversk torpaqları Reç Pospolitaya verildi.

❖ XVII əsrin birinci yarısında fasiləsiz müharibələr, polyak feodallarının hakimiyyət uğrunda mübarizəsi və kral hakimiyyətinin zəifliyi Reç Pospolitanın sosial-iqtisadi inkişafını ləngidirdi.

# HİNDİSTAN.
# DEHLİ SULTANLIĞI 1206-1526

- 1175-cl ildə türk sərkərdəsi Sahabəddin Məhəmməd Gurlu Pəncabdan Qəznəviləri qovdu və 20 il ərzində bütün Şimali Hindistanı özünə tabe etdi.
- Səhabəddin ələ keçirdiyi əraziləri türk mənşəli sərkərdələrinə iqta verərək onlara nəzarət etmək üçün varisi **Qütbəddin Aybəyin** başçılığı altın- da xüsusi idarə də yaratmışdı.
- Pəncab üsyanı nəticəsində Sahabbəddin Məhəmmədin öldürül- məsindən sonra Qütbəddin Aybək özünü Şimali Hindistanın hökmdarı elan edərək 1206-cı ildə Dehli sultanlığının əsasını qoydu.
- 1221-ci ildən başlayaraq monqollar Xarəzmşahın oğlu Cəlaləddini təqib edərək Dehli sultanlığına qarətçi yürüşə çıxdılar və bir sıra əraziləri ələ keçirdilər.
- 1265-ci ildə monqollar ölkədən qovuldu.
- Dehli sultanlığında bütün hakimiyyət dövlət başçısı olan sultana məxsus idi.
- Onun ən yaxın köməkçisi baş vəzir icra və nəzarət funksiyalarına malik olub, çoxsaylı idarələrə, vergi toplanmasına və hərbi işlərə rəhbərlik edirdi.

- ✓ Ərazi inzibati cəhətdən valilərin idarə etdiyi vilayətlərə bölünürdü.
- ✓ Vali yerlərdə verginin yığılmasına nəzarət edir, əhalinin narazılığını aradan qaldırır, toplanan verginin bir hissəsini sultan xəzinəsinə göndərir, qalan hissəsini isə vilayətin ehtiyaclarına sərf edirdi.
- ✓ Sultandan hərbi xidmət müqabilində iqta alanlar qoşun saxlaya bilərdilər.
- ✓ Belə şərti torpaq sahibi zəmindar adlanırdı.
- ✓ Müsəlmanların məhkəmə işini qazı həyata keçirirdi.
- ✓ Müsəlman olmayan əhali dövlət məmurları tərəfindən mühakimə edilirdi.
- ✓ Qərbi Pəncabda islam dininin mövqeyi daha güclü idi.
- ✓ Ruhanilərin bir qisminə ali ruhani rütbəsi - "imam" adı verilmişdi.
- ✓ Torpaq əsasən dövlət mülkiyyətində idi. Dini idarələrə məxsus torpaq vəqf, sultan ailəsinə məxsus olan torpaq isə xassə adlanırdı. Ölkədə icma torpaqları da var idi.
- ✓ Vergi ayrı-ayrı adamlardan deyil, bütün icmadan pul və natura şəklində alınırdı.
- ✓ Vilayətlərdən vergi yığılmasını asanlaşdırmaq üçün vergi dairələri yaradılmışdı.

❖ Sultan Əlaəddin Məhəmməd Hilçi (1296-1316) muzdlu ordu hesabına monqolların üç hücumunu dəf edib, ordunun artan xərclərini ödəmək məqsədilə əsas ərzaq mallarının qiyməti üzərinə dövlət nəzarəti qoydu, kəndlilərdən məhsulun yarısı vergi kimi alınmağa başlandı. Sultan istifadə edilməyən torpaqlardan vergi alınması haqqında fərman verdi. Hər baş mal-qaraya görə xüsusi vergi müəyyən olundu.

❖ Əlaəddin 1308-1311-ci illərdə Dekan ərazisinə yürüş etdi, Kaver çayınadək olan bölgələri sultanlığa qataraq tarixdə ilk dəfə bütün Hindistanı vahid dövlətdə birləşdirdi.

❖ Əhali üzərinə qoyulan vergilərin ağırlığı, iri feodalların mərkəzi hakimiyyətdən narazılığı 1316-cı ildə üsyana səbəb oldu.

❖ Qiyam etmiş vassallar Əlaəddini öldürdülər.

❖ Hakimiyyətə digər müsəlman-türk **Tuğlaqi sülaləsi** (1325-1351) gəldi. o, 1326-cı ildə paytaxtı Dehlidən Deoqir şəhərinə köçürdü.

❖ Bu, şimalda sultan hakimiyyətini zəiflətdi.
❖ Bundan iri Dehli feodalları və monqol xanları istifadə etdilər. Qiyasəddin ölkənin şimalını bürümüş qiyamların qarşısını almaq üçün böyük ordu yaratdı.
❖ Bu məqsədlə əhali üzərinə yeni vergilər qoydu.
❖ Dözülməz vergiləri ödəyə bilməyən kəndlilər yaşayış yerlərini tərk edərək meşələrə, dağlara qaçırdılar.
❖ Qiyasəddin 1329-cu ildə qoşuna verilən gümüş pulu mis pulla əvəz etdi. Lakin bu tədbir də tənəzzülə uğramış təsərrüfatı xilas edə bilmədi. O, Qucaratdakı qiyam zamanı öldürüldü.
❖ Onun oğlu **Firuz** Benqaliya və Dekan knyazlığının ayrılması ilə barışsa da, Qucarat limanını əldə saxladı.
❖ Sultan Firuz iqtanın irsən keçməsi haqqında fərman verdi.
❖ Qoşuna çəkilən xərcləri azaltmaqla maliyyə böhranına son qoydu.
❖ 1398-ci ildə isə Teymur Dehlini tutdu.
❖ Daxili çəkişmələr və Teymurun yürüşü Dehli sultanlığını zəiflətdi.

# BÖYÜK MOĞOL İMPERATORLUĞU

❖ XVI əsrin əvvəllərində Dehli sultanlığı dağınıqlıq dövrü keçirirdi.

❖ Hindistanın müsəlman əhalisi əsasən ölkənin şimal və qərb vilayətlərində, Şərqi Benqaliyada yaşayırdı.

❖ Şeybanilər tərəfindən məğlub edilən Teymuri Zahirəddin Babur 1507-ci ildə özünü Teymurun varisi elan edərək Pəncabı, Sind və Bəlucistanı hakimiyyəti altına aldı.

❖ 1526-cı il iyunun 29- da **Panipat döyüşündə** Dehli sultanı İbrahim Ludini məğlub edən Babur Aqra şəhərinə daxil olaraq Böyük Moğol dövlətinin əsasını qoydu.

❖ Panipat döyüşündə Baburun qələbə çalmasında osmanlılardan aldığı toplar həllədici rol oynadı. Onun qələbəsinin digər səbəbi türk, əfqan və taciklərdən təşkil edilmiş nizami orduya malik olması idi.

❖ Baburdan sonra hakimiyyətə gələn **Humayun** (1530-1556) hakimiyyətini güclə qoruyub-saxlayırdı.

❖ Onun ölümündən sonra taxt-taca sahib olan **Əkbər şah** (1556-1605) öz işinə dövləti daxildən möhkəmləndirməklə başladı.

❖ Bütün qiyam və çıxışlar yatırıldı. Onun dövründə dövlət imperatorluğa çevrildi.

❖ Əkbər şah Osmanlı dövlətinin təcrübəsindən və oradan göndərilmiş alimlərin məsləhətlərindən geniş istifadə edirdi.

❖ O, bütün torpaqları dövlət mülkiyyəti elan etdi. Onun bu islahatı cagirdar sisteminin ləğvinə yönəlmişdi.

❖ Bu islahatla müsəlman zadəganlarının ixtiyarında olan şərti torpaqlar dövlətə qaytarılmalı idi.

❖ Lakin iri feodallar bu tədbirdən narazı qaldıqları üçün Əkbər şah cagirdar sistemini yenidən bərpa etməyə məcbur oldu. Cagirdarlar onlara şərti verilmiş torpaqlardan vergi toplamaq əvəzində dövlətə qoşunla kömək edirdilər.

❖ Dağlıq və ucqar yerlərdə yaşayan kiçik və orta hind feodalları irsi torpaq sahibləri olub, zəmindar adlanırdılar.

❖ Hindistanda kənd icması əvvəlki kimi qalmaqda idi.

❖ Əkbər şah "Damğalama nizamı" adlı qanunla bütün at, fil və dəvələri damğalatdı.

❖ Məqsəd heyvanların sayını bilmək və onların üsyançı bəylərə satılmasının qarşısını almaqdan ibarət idi.

❖ Əkbər şah Səfəvi və Osmanlı imperiyaları ilə diplomatik əlaqələr saxlayırdı.

❖ O, Hind okeanı və Qırmızı dənizdəki dəniz quldurlarına qarşı mühafizə tədbirləri görürdü.

❖ **Cahangir şahın** (1605-1627) və **Cahan şahın** dövründə (1627-1658) Cənubi Hindistandan başqa, bütün Hindistan ərazisi Böyük Moğol imperatorluğunun tərkibində idi.

❖ XVI əsrin sonu - XVII əsrin əvvəllərində ölkə ərazisində ara müharibələri kəsilmiş, kənd təsərrüfatının, sənətkarlığın və ticarətin inkişafı üçün əlverişli şərait yaranmışdı.

❖ Lakin Cahangir şahın dövründə ara çəkişmələri və fasiləsiz müharibələr nəticəsində mərkəzi hakimiyyət zəifləmişdi.

❖ XVII əsrin birinci yarısında Ost-Hind ingilis şirkəti Hindistanın siyasi həyatına müdaxilə etməyə başladı.

❖ Bu isə gələcəkdə ölkənin müstəmləkə vəziyyətinə salınmasına şərait yaradırdı.

# ÇİN

❖XIII əsrin əvvəllərində monqolların hakimiyyəti altına düşən Çin monqol əsarətindən **1368-ci ildə** baş verən "qırmızısarıqlılar" üsyanı nəticəsində azad oldu.

❖ Hakimiyyətə Min sülaləsi (1368-1644) gəldi. Bu sülalə öz hakimiyyətinin ilk illərində aşağıdakı tədbirləri həyata keçirdi:

1. Kəndlilər üç il müddətinə vergi və mükəlləfiyyətlərdən azad edildilər.
2. Monqol feodallarının əlindən alınmış torpaqlar kəndlilərə paylandı.
3. Sənətkar və tacirlərdən alınan vergilərin miqdarı azaldıldı.

❖ Bu tədbirlər XV-XVI əsrlərdə təsərrüfatın yüksəlişinə səbəb oldu. Həmin vaxt Çin dövlətinin sərhədi müasir Çinin daxili əyalətlərini və Mancuriyanı əhatə edirdi.

❖ Koreya, Vyetnam və Tibet Çindən asılı idi.

❖ Min sülaləsi dövründə torpaq başlıca olaraq dövlət mülkiyyətində qalmaqda idi.

❖ Torpaq mülkiyyətinin "xüsusi", yaxud "xalq" adlı forması vardı.

❖ Onun sahibi olan feodallar və xırda sahibkarlar istifadə müqabilində dövlətə vergi verirdilər.

❖ Pekin və Nankin bu zaman paytaxt şəhərlər idi. Şanxay və başqa yəni şəhərlər salınmışdı.

❖1626-1643-cü illərdə Min sülaləsinin zəifləməsindən istifadə edən çjurçjenlər üç dəfə Böyük Çin səddini keçdilər.

❖ Əhalini məhv edib çoxlu mal-qara və əmlak qarət etdilər.

❖ 1626-cı ildə Şensi əyalətində başlayan kəndli üsyanı genişlənərək 1644-cü ildə Min sülaləsinin hakimiyyətinə son qoydu.

❖ Üsyanı yatırmaq üçün Çin feodalları tərəfindən köməyə çağırılan mancurlar Çində öz hakimiyyətlərini qurdular və ölkədə yadelli Mancur sülaləsinin hakimiyyəti (1644-1911) başladı.

❖ Dövlətə Tsin sülaləsindən olan **boqdıxan** adlanan imperatorlar başçılıq edirdilər.

❖ Onun əsas dayağı "səkkiz bayraqlı qoşun" idi.

❖ Bu qoşunda mancurlar, həmçinin mancurlara sədaqətini sübuta yetirmiş çinlilər xidmət edirdilər.

# MƏDƏNİYYƏT
## XI əsr - XVII əsrin birinci yarısında türk xalqlarının mədəniyyəti

❖ XI əsr - XVII əsrin birinci yarısında səlcuqlar, teymurilər və osmanlılar elm və mədəniyyətin inkişafına qayğı göstərirdilər.

❖ Böyük Səlcuq sultanı Alp Arslanın dövründə 1067-ci ildə Bağdadda açılmış ali mədrəsə dünyanın ilk universitetlərindən biridir.

❖ «Nizamiyyə» adlanan bu universitetdə dini elmlərlə yanaşı, hüquq, filologiya, riyaziyyat və astronomiya tədris olunurdu.

❖ Böyük türk alimi **Uluqbəy** XV əsrdə Səmərqənddə dünyanın ən məşhur rəsədxanasını qurmuş, Ay və Günəşin orbitlərini müəyyənləşdirmişdir.

❖ XI əsrin görkəmli türk alimi **Mahmud Qaşqari** 1077-ci ildə yazdığı «Türk dillərinin divanı» adlı əsərində türk xalqlarının yaşadığı ərazilərin təsvirini verən ilk xəritəni tərtib etmişdir.

❖ 1277-ci ildə Qaraman hakimi Məhəmməd bəyin fərmanı ilə türk dili rəsmi dil elan edilmişdir.

❖ Osmanlı dövlətində XVI əsr - XVII əsrin birinci yarısında Səhnisaman, Süleymaniyyə kimi mədrəsələr fəaliyyət göstərirdi.

❖ Türk admiralı **Piri Rəis** 1513-cü ildə dünyanın böyük xəritəsini çəkmiş və bu xəritəyə hətta Amerika qitəsini də daxil etmişdir.

❖ Göründüyü kimi, türk alimləri Amerika qitəsinin varlığından xəbərdar idilər. Piri Rəis dəniz atlasını da hazırlamışdır.

❖ **Əli Quşçu** görkəmli astronom və riyaziyyatçı, **Zəriri** tarixçi, Övliya Çələbi səyyah və coğrafiyaçı idi.

❖Türk xalqlarının memarlıq abidələri içərisində Buxarada Məqaki - Əttari məscidini, Teymurun Səmərqənddə tikdirdiyi Bibixanım məscidini, Şəhrisəbzdə tikdirdiyi Ağ sarayı, Teymurun qəbri üzərində tikilən və Səmərqənd memarlığının şah əsəri adlandırılan günbəzi - Gur Əmir mavzoleyini, Osmanlı dövlətində Çinili köşk, Topqapı və Fənərbaxça sultan saraylarını, Süleymaniyyə, Səlimiyyə camelərini göstərmək olar.

❖ XVI əsrin ən məşhur memarı **Sinan Xoca** idi.

❖ O, 1540-cı ildə Osmanlı imperatorluğunda baş memar vəzifəsinə təyin edilmişdi.

## HİNDİSTAN MƏDƏNİYYƏTİ

- XIII əsrdə Hindistanda müsəlman-türk dövlətinin - Dehli sultanlığının yaranması nəticəsində mədəniyyətdə yeni xüsusiyyətlər üzə çıxmağa başladı.
- Nəticədə hind-müsəlman mədəniyyəti təşəkkül tapdı.
- Dehli sultanlığında yaşayıb-yaratmış məşhur salnaməçilərdən Ziyəddin Baranini, şairlərdən Əmir Xosrov Dəhləvini misal göstərmək olar.
- Müsəlman-türk memarlıq abidələri içərisində:
  - ✓ 1193-1200-cü illərdə Dehlidə inşa edilmiş Qüvvətül-islam məscidini,
  - ✓ 1206-1210-cu illərdə Qütbəddin Aybəyin əmri ilə inşa edilmiş 73 metr hündürlüyü olan **Qütb minar** minarəsini,
  - ✓ Malvadakı məscidi,
  - ✓ Multan mavzoleyini qeyd etmək lazımdır.

❖ XV əsrin ən görkəmli musiqiçisi Nayek Bayçu idi.

❖ Böyük Moğol hökmdarı Cahanşahın arvadı Mümtaz Mahal Banu Bəyimin şərəfinə ucaldılan Tac-Mahal məqbərəsi (1630-1652) "Hindistanın incisi" adlanır.

❖ Moğol imperatorluğu dövrünün abidələri içərisində:

- ✓ Humayun şahın Dehlidəki məqbərəsi,
- ✓ Aqra və Lahordakı saraylar,
- ✓ Fəthpur qala-şəhəri daha məşhur idi.

❖ Əkbər şahın dövründə saray musiqiçiləri arasında Tansen, miniatürçü rəssamlardan Əbdüssəməd daha məşhur idi.

## Çin mədəniyyəti

❖ Çində XIII əsrdə **barıt,**
❖ XIV əsrdə **top** ixtira edilmişdi.
❖ XIV əsrin sonunda naviqasiya məktəbi açılmışdı.
❖ Dənizçi Çjen He 1405-1433-cü illərdə yeddi dəfə Hind okeanına ekspedisiya təşkil etmişdi.
❖ XIII—XIV əsrlərdə dram və roman janrları yaranmışdı.
❖ Monqollara qarşı mübarizədən bəhs edən "Kiçik çay körfəzi", "Üç padşahlıq" romanları məşhur idi.
❖ XI-XV əsrlər Çin incəsənətinin yüksəliş dövrü idi.
❖ Dövrün məşhur rəssamı Van Vey idi.
❖ XVI-XVII əsrin birinci yarısında Çində təbabət elmi inkişaf etmişdi.
❖ XVI əsrdə farmakologiyaya dair "Ağac və bitkilər haqqında" traktat və Çjan Çjunun "Tifə dair" əsəri yazılmış, "Kənd təsərrüfatı“ ensiklopediyası nəşr olunmuşdu.
❖ Filosof Van Yan Minin ideyaları XVI əsrdə fəlsəfi biliklərin inkişafında mühüm rol oynamışdır.

## XI-XV əsrlərdə Qərbi Avropa mədəniyyəti

❖ XI-XV əsrlərdə Qərbi Avropada mədəniyyət sahəsində böyük irəliləyişlər baş vermişdi. İnsanların dünya haqqında təsəvvürləri genişlənirdi. Səyyah və tacirlər başqa ölkələrə səfərlərə çıxmağa başlamışdılar.

❖ XIII əsrdə venesiyalı tacir və səyyah **Marko Polo** Uzaq Şərqə səyahət edərək uzun illər Çində yaşamışdı. Onun Asiya xalqlarının həyatından bəhs edən əsəri uzun müddət coğrafiya xəritələrini çəkmək üçün əsas olmuşdur.

❖ Kilsə məktəbləri şəhərlərin özünüidarə orqanlarının və kral sarayının savadlı mütəxəssislərə olan tələbatını ödəmək iqtidarında deyildi. Ona görə də dünyəvi məktəblər açılır, ilk ali məktəblər meydana gəlirdi.

❖ XII əsrdə Qərbi Avropada,universitetlər yaranmağa başladı və ilk universitet 1158-ci ildə İtaliyada açılmış **Bolonya Universiteti** oldu.

❖ Ən qədim ali məktəblərdən biri olan Paris Universiteti 1200-cü ildə öz hüquqlarının qanuniləşdirilməsi haqqında kraldan fərman almışdı.

❖ XV əsrdə Avropada münəccimlik (astrologiya) və əlkimya elmləri inkişaf edirdi.

❖ XIII əsrdə İngiltərənin Oksford Universitetinin professoru Rocer Bekonun «Böyük əmək» əsərini o dövrün ensiklopediyası adlandırırdılar.

❖ XI—XII əsrlərdə Qərbi Avropada Roma üslublu tikililər,

❖ XII-XV əsrlərdə isə qot memarlıq üslublu bina və abidələr üstünlük təşkil edirdi.

❖ XII əsrdə Fransada «Roland haqqında nəğmə» və «Tülkü haqqında roman» poemaları yazılmışdı.

## İntibah mədəniyyəti

Qərbi Avropada XVI-XVII əsrlər intibah mədəniyyətinin yaranmasının səbəbləri:

- ✓ Əvvəlcə İtaliya şəhərlərində, sonra digər Avropa ölkələrində manufakturaların meydana gəlməsi ilə burjuaziya (şəhər varlısı) yaranmışdı.
- ✓ Bu yeni zümrə manufakturada istehsalı genişləndirmək üçün elm və texnikanın inkişafında maraqlı idi.
- ✓ Burjuaziyanın nümayəndələri bədii əsərlər sifariş verməyə başlamışdılar.
- ✓ Şəhərlərdə zehni əməklə məşğul olan ziyalı təbəqəsi yaranmışdı.
- ✓ Təbiətə, xüsusilə insana maraq artmışdı.
- ✓ İnsana yüksək qiymət verən mədəniyyət nümayəndələrini humanistlər adlandırırdılar.
- ✓ Humanistləri hərtərəfli inkişaf etmiş insan maraqlandırırdı.
- ✓ Humanistlər insanla yanaşı, unudulmuş antik mədəniyyətə də böyük maraq göstərir, onu yenidən dirçəltməyə çalışırdılar.
- ✓ Buna görə də yeni mədəniyyətin yarandığı dövr İntibah dövrü adlanır.

❖ İntibah mədəniyyətinin mərkəzi İtaliyanın Florensiya şəhəri idi.

❖ Roma, Venesiya və Milan şəhərləri də öz sənətkarları ilə məşhur idilər.

❖ İtaliya intibahının ən böyük nümayəndələrindən biri olan **Leonardo da Vinçi** (1452-1519) dahi rəssam idi. Onun «Mona Liza» ("Cokonda") əsəri bütün dünyada məşhurdur.

❖ Leonardo da Vinçi dövrünü bir neçə əsr qabaqlayaraq paraşütün, vertolyotun və sualtı qayığın maketini işləyib-hazırlamışdı.

❖ İntibah dövrünün dahi rəssamı və heykəltəraşı **Mikelancelo** (1475-1564) «nəhəng» adlandırılan 5,5 metr hündürlüyündə «David» heykəlini yaratmışdır.

❖ **Rafael** «Sikst Məryəm anası» rəsm əsərini çəkmişdir.

❖ Alman intibah ressamı **Albraxt Dürar** (1471-1528) «Cavan oğlan» portretini, hollandiyalı rəssam **Rembrandı Van Reyn** «Yolunu azmış oğulun qayıtması» əsərini çəkmişdir.

❖ Sadə adamların rəsmini çəkən ilk Avropa rəssamı ispan **Diyeqo Velaskes** «Əyirici qadınlar» adlı rəsm əsərini yaratmışdır.

❖ Qərbi Avropanın böyük humanist yazıçılarmın sırasına:
✓ Tomas Mor,
✓ Fransua Rable,
✓ Uilyam Şekspir və
✓ Migel Servantes daxildir.

❖ İntlbah dövrünün alimlərindən biri polyak **Nikolay Kopernik** 1543-cü ildə yazdığı «Göy cisimlərlnin fırlanması» əsərində Yerin öz oxu və Günəş ətrafında fırlanmasını irəli sürməklə elmdə çevriliş etdi.

❖ Onun təlimini inkişaf etdirən italyan **Cordano Bruno** kainatın sonsuzluğu fikrini təsdiq etdi.

❖ O göstərdi ki, Günəş heç də dünyanın mərkəzi deyildir.

❖ Kilsə məhkəməsinin hökmü ilə onu 1600-cü ildə tonqalda yandırdılar.

❖ Teleskopdan göy cisimlərini müşahidə ədən venesiyalı **Q.Qaliley** yeni kəşflər etdi.

❖ O, Kopernikin və C.Brunonun təlimini təsdiqlədi.

## AMERİKA XALQLARININ MƏDƏNİYYƏTİ

❖ Hökmdarların və kahinlərin göstərişləri əsasında **mayyalılar** saraylar və pilləli ehramlar formasında məbədlər tikirdilər.

❖ Mayya hökmdarlarının **Uşmaladaki** VIII—IX əsrlərə aid sarayı memarlıq nümunəsidir.

❖ Onlar daş tavalar döşənmiş yollar çəkirdilər.

❖ Hələ III əsrdə mayyaların yazısı vardı və bu yazı heroqliflərdən ibarət idi.

❖ Onlar sıfır rəqəmindən Hindistandan əvvəl istifadə etmişdilər.

❖ Mayya kahinləri planetlərin Günəş ətrafında hərəkətini hesablaya, Günəşin və Ayın tutulmasını əvvəlcədən xəbər verə bilirdilər.

❖ **Çeçen-İtsada** XII—XIII əsrlərə aid pilləli ehramda məbədə çıxmaq üçün 4 pilləkən, 365 pillə və 18 çıxıntı var idi.

❖ Bu, mayyaların 365 günlük (4 fəsil və 18 ay) dəqiq təqvimə malik olduğunu göstərir.

❖ XI—XII əsrlərə aid **Mayya rəsədxanası** bunları yaradanların astronomik biliklərə yiyələndiklərini sübut edir.

❖ Həmin rəsədxanada kahinlər gecə ilə gündüzün bərabərliyini müəyyənləşdirə bilirdilər.

❖ Asteklər Meksikada yaşayırdılar.

❖ Mexiko şəhərindəki məktəbdə uşaqlara yazmağı, oxumağı, hesablamağı və hərbi işi öyrədirdilər.

❖ Şagirdlər tarixə, dinə, mifologiyaya, astronomiya və poeziyaya dair biliklər də əldə edirdilər.

❖ Asteklər dram əsərlərinə də malik olmuşlar.

❖ İnklərin yüksək inkişafa malik olduğunu tunellər, asma körpülər və poçt rabitəsi də sübut edir.

❖ Məktəblərdə şagirdlərə yazmağı, dinə, tarixə və hərbi işə dair biliklər öyrədirdilər.